RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 158 (9037) CÜMƏ, 29 iyul 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Qüdrətli dövlət, yüksək rifah, davamlı sabitlik



## İlham Əliyevin müəllifi olduğu yeni sosial-iqtisadi inkişaf Strategiyası növbəti onillikdə hərtərəfli tərəqqinin təminatıdır

Bir vaxtlar iqtisadi müstəqilliyini təmin edə bilməyən, xaricdən aldığı yardımlarla keçinən, zəngin təbii ehtiyatları ola-ola hətta əhalisinin enerjiyə olan tələbatını idxal hesabına ödəyən Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır. Dünya artıq müstəqil Azərbaycanı regionun lideri, qlobal layihələr həyata keçirən, islahatlar aparan, əməkdaşlığa və qlobal enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı tərəfdaş ölkə kimi qəbul edir.

Bütün bu uğurlar isə cəmi 30 ildə əldə edilib. Son 19 ildə isə İlham Əliyevin yürütdüyü siyasətlə Azərbaycan iqtisadi və siyasi müstəqilliyə, müzəffər orduya sahib qüdrətli dövlətə çevrilib.

Bu gün dünyanı təhdid edən qlobal iqtisadi böhran fonunda Azərbaycanın dayanıqlı inkişafı məhz İlham Əliyevin həyata keçirdiyi mütərəqqi islahatlar sayəsində əldə edilib. Uzaqgörən lider kimi qəbul etdiyi qərarlarla, reallaşdırdığı inkişaf strategiyası ilə Azərbaycanın gücünə güc qatan dövlət başçısının qarşıdakı 5 il üçün müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyası da qarşıdakı dövrdə gözlənilən böhrandan az itki ilə çıxmağı hədəfləyir.

### Yüksəkgəlirli dövlətlər qrupuna daxil olmaq üçün iqtisadiyyat davamlı artmalıdır

Prezdentin təsdiq etdiyi "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda da qeyd edilir ki, ölkə iqtisadiyyatının uzunmüddətli dövrdə qlobal və daxili mühitdən irəli gələn yeni çağırışlarla üzləşməsi labüddür. Milli iqtisadiyyatımızın kiçik olması və qlobal iqtisadiyyata yüksək inteqrasiyası xarici mühitdən irəli gələn qalıcı çağırışlara həssaslığını şərtləndirir və milli iqtisadiyyatın strukturunun dəyişməsini zəruri edir. Bu çağırışlar çoxistiqamətlidir.

Ölkəmizin yüksəkgəlirli dövlətlər qrupuna daxil olması üçün uzunmüddətli dövrdə iqtisadiyyat sürətli və davamlı artmalıdır. Dünyada 13 ölkənin iqtisadiyyatı 25 il ərzində hər il orta hesabla 7 faizi üstələyən artım nümayiş etdirib. Bu iqtisadiyyatlar sürətli, dayanıqlı və inklüziv şəkildə artaraq, yüksəkgəlirli ölkələrlə məsafənin azalmasına nail olublar. Elə milli iqtisadiyyatımız yüksəkgəlirli ölkələr sırasına daxil olmağı hədəfləyir. Bunun üçün dayanıqlıq və inklüzivlik keyfiyyətlərini özündə cəmləyən yeni iqtisadi artım olmalıdır. Yalnız belə bir iqtisadi artım hər bir Azərbaycan vətəndaşının gəlirlərinin davamlı artması üçün zəmin yarada bilər.

Sənəddə qeyd edilir ki, dünya ölkələrinin iqtisadiyyatlarında sürətli rəqəmsallaşma meyilləri və bu əsasda məhsuldarlığın əhəmiyyətli artımı keyfiyyətli inkişaf üçün fürsətlər yaradır. Dünyada davamlı texnoloji inkişaf qlobal dəyər zəncirini sürətlə genişləndirir və onun coğrafiyasını böyüdür.

→ 3

## Prezident mühüm fərman imzaladı

Elm və təhsil sahəsində idarəetmə təkmilləşdirilir



→ 2

## Prezidentin rəhbər işçilərdən tələbi sadə, amma qətidir

Qanunlara əməl etmək, ədalətli olmaq, xalqın qayğısına qalmaq

Azərbaycan Prezidenti İlham Əliyev bu günlərdə 3 rayona yeni icra başçılarını vəzifə təyinatı ilə bağlı qəbul edərkən dövlətin kadr siyasətinin əsas istiqamətlərini bircə cümlə ilə belə çatdırdı: "İlk növbədə rayonlarda vəziyyət geniş təhlil olunmalıdır, mövcud nöqsanlar aşkar edilməli və aradan qaldırılmalıdır".

Ümumiyyətlə, son illər Prezident tərəfindən yeni təyinatlarla bağlı keçirilən bütün qəbullar, bir qayda olaraq, ciddi təhlillər, nöqsanların araşdırılması, kadr siyasətində yeni sinergetik yanaşmanın tətbiqi ilə səciyyələnir. Uğurlar qısaca sadalanır, əsas diqqət isə nöqsanların araşdırılıb həll olunmasına və perspektivlərin təyin edilməsinə yönəldilir.

Bütün ölkə boyu regional inkişaf dövlət proqramlarının icrası nəticəsində böyük quruculuq işləri görülmüş, o cümlədən infrastruktur layihələri icra edilmiş və bununla problemlərin böyük hissəsi həllini tapmışdır.

→ 3

## "QARABAĞ"ın İsveçrə zəfəri

Ağdam klubu avrokuboklarda daha bir parlaq səhifə açdı



→ 8

## Kapital qoyuluşunda qeyri-dövlət sektorunun payı yüksəkdir

Ölkəmizdə iqtisadi inkişaf sürətlənir, məhsul istehsalı və ixracı artır, dövlətin gəlirləri çoxalır ki, bu da sabit maliyyə mühitinin yaranmasına müsbət təsir göstərir. Cari ilin yanvar-may aylarında xarici ticarətdə 11 milyard 77 milyon dollar müsbət saldonun yaranması isə ölkəyə daha çox valyutanın daxil olduğunu göstərir.

Gəlirlərin əsas mənbəyi neft-qaz ixracı olsa da, qeyri neft-qaz ixracında da yüksək artım dinamikası müşahidə olunur. Məlumdur ki, bu sahədə əsas rolu sənaye zonaları oynayır. Təkcə Sumqayıt Kimya Sənayesi Parkında 6 ay ərzində ümumilikdə 5,86 milyard manatlıqdan artıq məhsul istehsal olunub ki, bunun da 2,15 milyard manatlıqdan çox hissəsi ixrac edilib. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-iyun aylarında sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 11,5 faiz artıb. Həmin dövrdə ümumi istehsalın 94,2 faizi sənaye məhsullarının istehsalının payına düşüb.

→ 5

## Sahibkarlığa dəstək davamlı və sistemlidir

Hər bir ölkənin iqtisadi və sosial inkişafının əsas təkanverici amillərindən biri sahibkarlıq və sərbəst biznes mühitidir. Ona görə sahibkarlıq fəaliyyəti üçün daha da əlverişli imkanların təmin olunması, bu məqsədlə mütəmadi olaraq islahatların aparılması Azərbaycan dövlətinin inkişaf strategiyasının məzmununu təşkil edir. Bütün bunların nəticəsidir ki, Azərbaycanın maliyyə imkanlarının artmasında, büdcə gəlirlərinin yüksəlməsində əsasən sahibkarların yer aldığı qeyri-neft sektorunun payı durmadan yüksəlir.

### Uğurlu islahatların nəticəsi

Ümumiyyətlə, son dövrlərin iqtisadi mənzərəsi Azərbaycanın qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləyən bir ölkə olduğunu, Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf kursunun özünü tam doğrultduğunu nümayiş etdirir.

→ 3

## Ermənistan insanlıq əleyhinə cinayətlərini davam etdirir








→ 7

## Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahələrdə idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (bundan sonra - Nazirlik) adlandırılsın.

2. Elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların elmi fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər Nazirliyə həvalə edilsin.

3. Nazirliyin yanında aşağıdakı agentliklər yaradılsın:

3.1. Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi;

3.2. Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi.

4. Azərbaycan Milli Elmlər Akademiyasının Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin tabeliyinə verilən elmi müəssisə və təşkilatlarının, habelə digər qurumlarının siyahısı təsdiq edilsin (əlavə edilir).

5. Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi və Hüseyn Cavidin Ev-Muzeyi əmlakları ilə birlikdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tabeliyinə verilsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. üç ay müddətində:

6.1.1. Nazirliyin yeni əsasnaməsinin və strukturunun, habelə bu Fərmanın 3.1-ci və 3.2-ci bəndləri ilə yaradılan agentliklərin əsasnamələrinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.1.2. bu Fərmanın 1-5-ci hissələri nəzərə alınmaqla, elm və təhsil sahəsində normativ-hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.1.3. Nazirliyin Aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say həddini, habelə Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.2. bu Fərmanın 4-cü hissəsinə uyğun olaraq Azərbaycan Milli Elmlər Akademiyasının Nazirliyin tabeliyinə verilən elmi müəssisə və təşkilatlarının, habelə digər qurumlarının balansında olan dövlət əmlakının Nazirliyin balansına verilməsi ilə bağlı tədbirlər görsün;

6.3. bu Fərmanın 4-cü və 5-ci hissələri nəzərə alınmaqla Azərbaycan Milli Elmlər Akademiyasının yeni strukturunu və işçilərinin say həddini üç ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.4. bu Fərmanın 3.1-ci və 3.2-ci bəndləri, 4-cü və 5-ci hissələri nəzərə alınmaqla zəruri maliyyə və maddi-texniki təminat məsələlərini həll etsin;

6.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

7. Nazirlik:

7.1. bu Fərmanın 4-cü hissəsinə uyğun olaraq tabeliyinə verilən qurumların sayının optimallaşdırılması və fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

7.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Azərbaycan Milli Elmlər Akademiyası:

8.1. bu Fərmanın 2-ci, 4-cü və 5-ci hissələri nəzərə alınmaqla Ümumi Yığıncağında qəbul edilmiş yeni Nizamnaməsini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

9. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2022-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir

## Azərbaycan Milli Elmlər Akademiyasının Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin tabeliyinə verilən elmi müəssisə və təşkilatlarının, habelə digər qurumlarının Siyahısı

1. Azərbaycan Milli Elmlər Akademiyasının büdcədən maliyyələşdirilən elmi müəssisələri:
1.1. Fizika İnstitutu;
1.2. Riyaziyyat və Mexanika İnstitutu;
1.3. İdarəetmə Sistemləri İnstitutu;
1.4. Radiasiya Problemləri İnstitutu;
1.5. İnformasiya Texnologiyaları İnstitutu;
1.6. Biofizika İnstitutu;
1.7. Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanası;
1.8. Akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu;
1.9. Akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu;
1.10. Akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutu;
1.11. Polimer Materialları İnstitutu;
1.12. Geologiya və Geofizika İnstitutu;
1.13. Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu;
1.14. Təbiət Tarixi Muzeyi;
1.15. Neft və Qaz İnstitutu;
1.16. Botanika İnstitutu;
1.17. Zoologiya İnstitutu;
1.18. Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu;
1.19. Mikrobiologiya İnstitutu;
1.20. Dendrologiya İnstitutu;
1.21. Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu;
1.22. Genetik Ehtiyatlar İnstitutu;
1.23. Torpaqşünaslıq və Aqrokimya İnstitutu;
1.24. İqtisadiyyat İnstitutu.
2. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin tabeliyində olan elmi müəssisələr:
2.1. Təbii Ehtiyatlar İnstitutu;
2.2. Bioresurslar İnstitutu;
2.3. Batabat Astrofizika Rəsədxanası.
3. Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə bölməsinin tabeliyində olan elmi müəssisələr:
3.1. Ekologiya və Təbii Ehtiyatlar İnstitutu;
3.2. Bioresurslar İnstitutu;
3.3. Aqrar Problemlər İnstitutu;
3.4. Nəbatat Bağı.
4. Azərbaycan Milli Elmlər Akademiyasının təsərrüfathesablı elmi xidmət müəssisələri:
4.1. Təcrübə-Sənaye Zavodu;
4.2. "Kibernetika" Elmi-İstehsalat Birliyi;
4.3. "Nafta" Elmi-İstehsalat Birliyi;
4.4. "Aşqar" Elmi-İstehsalat Birliyi;
4.5. "Kompozit" Elmi-İstehsalat Birliyi.
5. Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində "AMEA Yüksək Texnologiyalar Parkı" Məhdud Məsuliyyətli Cəmiyyəti.

## "Azərbaycan Respublikası ilə Türkmənistan arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 20 iyun tarixli 2236 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası ilə Türkmənistan arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 20 iyun tarixli 2236 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 650; 2009, № 6, maddə 424, № 7, maddə 589; 2010, № 9, maddə 773; 2012, № 2, maddə 121; 2014, № 2, maddə 112, № 4, maddə 391, № 6, maddə 644; 2015, № 7, maddə 852; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 1, maddə 79, № 8, maddə 1677; 2021, № 7, maddə 820; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 may tarixli 3295 nömrəli Sərəncamı) 1-ci hissəsində "Azərbaycan Respublikası Baş nazirinin birinci müavini" sözləri "Azərbaycan Respublikasının iqtisadiyyat naziri" sözləri ilə əvəz edilsin və həmin hissədən "Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası ilə Türkmənistan arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilmiş dəyişiklik barədə Türkmənistan tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2022-ci il*

## "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 may tarixli 2833 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 may tarixli 2833 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 422; 2012, № 2, maddə 114; 2014, № 2, maddə 112, № 6, maddə 644; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 1, maddə 79; 2021, № 7, maddə 822) 1-ci hissəsində "Azərbaycan Respublikası Baş nazirinin birinci müavini" sözləri "Əli Əhmədov - Azərbaycan Respublikası Baş nazirinin müavini" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilmiş dəyişiklik barədə Qırğız Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2022-ci il*

## Bakı şəhərinin Nizami rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Nizami rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 3,0 (üç) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2022-ci il*

## "Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 16 oktyabr tarixli 1737 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 16 oktyabr tarixli 1737 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 10, maddələr 878, 888; 2012, № 2, maddə 136; 2014, № 2, maddə 112, № 6, maddə 644; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 1, maddə 79; 2021, № 7, maddə 819; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 may tarixli 3298 nömrəli Sərəncamı) 1-ci hissəsində "Azərbaycan Respublikası Baş nazirinin birinci müavini" sözləri "Əli Əhmədov - Azərbaycan Respublikası Baş nazirinin müavini" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilmiş dəyişiklik barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2022-ci il*

# Ərzaqlıq buğdanın dövlət tədarük qiyməti müəyyən edilib

Azərbaycan Respublikası Prezidentinin ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi, o cümlədən əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi məqsədilə qəbul etdiyi "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" 2022-ci il 19 iyul tarixli Fərmanının icrası istiqamətində işlər davam etdirilir.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, fərmanın 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, yerli ərzaqlıq buğda istehsalçılarının fəaliyyətinin stimullaşdırılması və onlara dövlət dəstəyinin göstərilməsi ilə əlaqədar Dövlət Ehtiyatları Agentliyinin aidiyyəti dövlət qurumları ilə razılaşdırılmış təklifinə əsasən, Nazirlər Kabineti tərəfindən müvafiq sərəncam qəbul edilib. Həmin sərəncamla ərzaqlıq buğdanın istehsal xərcləri (maya dəyəri) və istehsalçının mümkün qazancı nəzərə alınmaqla, Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli 105 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları"nın 1 nömrəli əlavəsində göstərilən keyfiyyət göstəricilərinə uyğun yerli ərzaqlıq buğdanın bir tonunun dövlət tədarük qiyməti 2022-ci il üçün 580,0 (beş yüz səksən) manat müəyyən olunub.

# "Vətəndaşlarla sıx təmas, korrupsiya və rüşvətxorluqla mübarizə icra başçılarının fəaliyyətində əsas prinsiplər olmalıdır"

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev ölkəmizdə kadr islahatlarını uğurla davam etdirir. Prezidentin 2022-ci il 25 iyul tarixli sərəncamları ilə Masallı, Lerik və Göygöl rayonlarının yeni icra hakimiyyəti başçıları təyin edilib. Təyinat münasibətilə yeni icra başçılarını qəbul edən Azərbaycan Prezidenti bir daha ölkəmizdə aparılan islahatların, xüsusən kadr islahatlarının davam edəcəyini qətiyyətlə bildirib və islahatların əsas hədəflərini bəyan edib, yeni kadrlardan gözləntilərini açıq və birmənalı surətdə ifadə edib.



Azərbaycan Prezidenti bəzi kadrların, o cümlədən bir neçə rayonun icra hakimiyyəti başçısının onlara göstərilən etimadı doğrultmadıqlarını, işlərində ciddi nöqsanlara yol verdiklərini və üzərilərinə düşən vəzifələri lazımınca yerinə yetirmədiklərini diqqətə çatdırıb. Bir neçə belə icra başçısı məsuliyyətə cəlb olunmuş, barələrində cinayət işi qaldırılmış və məhkəmə hökmü verilmişdir. Rüşvətxorluq və korrupsiya əməllərinə yol verən kadrlara qarşı barışmaz mübarizə aparılır. Cinayət məsuliyyətinə cəlb edilmiş kadrlar və icra başçıları da buna nümunədir. Bununla belə, bəzi məmurlar yenə də qanunsuzluqlara yol verir və dövlət başçısının xəbərdarlıqlarına baxmayaraq, köhnə vərdişlərindən əl çəkmirlər.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis Sədrinin müavini Adil Əliyev ifadə edib.

A.Əliyev bildirib ki, qeyd edilənləri nəzərə alaraq Azərbaycan Prezidenti Masallı, Lerik və Göygöl rayonlarının yeni təyin olunmuş icra başçılarına və onların simasında digər məmurlara öz tapşırıq və tövsiyələrini verib, mənfi hallara yol verilməməsi, korrupsiya və rüşvətxorluğun bağışlanılmaması barədə bir daha xəbərdarlıq edib. İcra başçılarına verilən əsas tövsiyələrdən biri onların təyin olunduqları rayonların ərazisində, xüsusən kənd yerlərində vətəndaşlarla müntəzəm təmasda olmaq, onların problemləri ilə yerində və yaxından maraqlanaraq həlli istiqamətində çalışmaq idi. Prezident onu da vurğulayıb ki, rayonun imkanları xaricində olan problem və məsələlərin həlli üçün Prezident Administrasiyası, Nazirlər Kabineti və digər qurumlara müraciət edilməlidir. Amma ilk növbədə çalışmaq lazımdır ki, problemlər yerində və mümkün qədər rayonun daxili imkanları hesabına həll olunsun. Bu da yerli icra hakimiyyəti orqanlarından işə məsuliyyətlə yanaşmaq və can yandırmaq tələb edir.

"Prezidentin digər tövsiyəsi icra hakimiyyəti başçılarının öz fəaliyyətlərində sosial ədalət prinsipinə riayət etmələri barədədir. Sosial ədalət, ümumiyyətlə, ədalət prinsipləri cəmiyyətdə əsas prinsiplərdən biridir. Ədalətin hökm sürdüyü yerdə isə sağlam cəmiyyət formalaşır. Sosial ədalət cəmiyyətimizdə həmrəyliyin möhkəmlənməsi baxımından da zəruri şərtdir. Sosial ədalət olmadan cəmiyyətdə tam həmrəyliyə nail olmaq mümkün deyildir. Çox sevindirici haldır ki, bu gün Azərbaycan cəmiyyətində həmrəylik hökm sürür, xalq-iqtidar birliyi gündən-günə möhkəmlənir. Daxilimizdə olan bu möhkəm həmrəylik beynəlxalq miqyasda mövqelərimizin güclənməsi və xarici siyasətimizin uğurlu olması üçün ciddi təməl kimi çıxış edir və münbit zəmin yaradır", - deyə parlament sədrinin müavini əlavə edib.

Vurğulanıb ki, məhz ölkə daxilində möhkəm həmrəylik, iqtidar-xalq birliyi və uğurlu xarici siyasət sayəsində Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib ordumuz 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad etdi. Bununla bağlı dövlət başçısı qeyd etdi: "Heç kəs unutmamalıdır ki, azad edilmiş torpaqlarımıza bayrağımızı sancan bizim qəhrəman əsgər və zabitlərimiz olub". Təəssüf ki, müharibə itkisiz olmur, Vətəni şəhid vermədən azad etmək, qorumaq olmur. Ona görə də canını Vətən uğrunda fəda edən şəhidlərimizin ailələri, sağlamlıqlarını itirmiş qazilər və müharibə əlilləri daim hər bir vətəndaşımızın, dövlət məmurlarının və xüsusən də rayon icra hakimiyyəti orqanlarının diqqət mərkəzində olmalıdırlar.

"Azərbaycan Prezidenti İlham Əliyev şəhid ailələrini və qaziləri daim diqqət mərkəzində saxlamağı rayon icra hakimiyyəti başçıları üçün bir daha prioritet istiqamətlərdən biri olaraq müəyyən edib, onlara öz fəaliyyətlərində vətəndaşlarla sıx təmasda olmaq, sosial ədalət və şəffaflıq prinsiplərinə riayət etmək, korrupsiya və rüşvətxorluqla mübarizə aparmağı qətiyyətlə tapşırıb", - deyə Adil Əliyev qeyd edib.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

İyulun 28-də baş prokuror Kamran Əliyev Mingəçevir Şəhər Prokurorluğunun inzibati binasında Mingəçevir şəhəri, Yevlax və Ağdaş rayonları, həmçinin digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 63 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, mülki xarakterli mübahisələrlə bağlı və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Qəbuldan sonra baş prokuror Yevlax və Ağdaş rayon prokurorluqlarına gedib, əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

# Qüdrətli dövlət, yüksək rifah, davamlı sabitlik



## İlham Əliyevin müəllifi olduğu yeni sosial-iqtisadi inkişaf strategiyası növbəti onillikdə hərtərəfli tərəqqinin təminatıdır

Bir vaxtlar iqtisadi müstəqilliyini təmin edə bilməyən, xaricdən aldığı yardımlarla keçinən, zəngin təbii ehtiyatları ola-ola hətta əhalisinin enerjiyə olan tələbatını idxal hesabına ödəyən Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır. Dünya artıq müstəqil Azərbaycanı regionun lideri, qlobal layihələr həyata keçirən, islahatlar aparan, əməkdaşlığa və qlobal enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı tərəfdaş ölkə kimi qəbul edir.

Bütün bu uğurlar isə cəmi 30 ildə əldə edilib. Son 19 ildə isə İlham Əliyevin yürütdüyü siyasətlə Azərbaycan iqtisadi və siyasi müstəqilliyə, müzəffər orduya sahib qüdrətli dövlətə çevrilib.

Bu gün dünyanı təhdid edən qlobal iqtisadi böhran fonunda Azərbaycanın dayanıqlı inkişafı məhz İlham Əliyevin həyata keçirdiyi mütərəqqi islahatlar sayəsində əldə edilib. Uzaqgörən lider kimi qəbul etdiyi qərarlarla, reallaşdırdığı inkişaf strategiyası ilə Azərbaycanın gücünə güc qatan dövlət başçısının qarşıdakı 5 il üçün müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyası da qarşıdakı dövrdə gözlənilən böhrandan az itki ilə çıxmağı hədəfləyir.

### Yüksəkgəlirli dövlətlər qrupuna daxil olmaq üçün iqtisadiyyat davamlı artmalıdır

Prezidentin təsdiq etdiyi "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda da qeyd edilir ki, ölkə iqtisadiyyatının uzunmüddətli dövrdə qlobal və daxili mühitdən irəli gələn yeni çağırışlarla üzləşməsi labüddür. Milli iqtisadiyyatımızın kiçik olması və qlobal iqtisadiyyata yüksək inteqrasiyası xarici mühitdən irəli gələn qalıcı çağırışlara həssaslığını şərtləndirir və milli iqtisadiyyatın strukturunun dəyişməsini zəruri edir. Bu çağırışlar çoxistiqamətlidir.

Ölkəmizin yüksəkgəlirli dövlətlər qrupuna daxil olması üçün uzunmüddətli dövrdə iqtisadiyyat sürətli və davamlı artmalıdır. Dünyada 13 ölkənin iqtisadiyyatı 25 il ərzində hər il orta hesabla 7 faizi üstələyən artım nümayiş etdirib. Bu iqtisadiyyatlar sürətli, dayanıqlı və inklüziv şəkildə artaraq, yüksəkgəlirli ölkələrlə məsafənin azalmasına nail olublar. Elə milli iqtisadiyyatımız yüksəkgəlirli ölkələr sırasına daxil olmağı hədəfləyir. Bunun üçün dayanıqlıq və inklüzivlik keyfiyyətlərini özündə cəmləyən yeni iqtisadi artım olmalıdır. Yalnız belə bir iqtisadi artım hər bir Azərbaycan vətəndaşının gəlirlərinin davamlı artması üçün zəmin yarada bilər.

Sənəddə qeyd edilir ki, dünya ölkələrinin iqtisadiyyatlarında sürətli rəqəmsallaşma meyilləri və bu əsasda məhsuldarlığın əhəmiyyətli artımı keyfiyyətli inkişaf üçün fürsətlər yaradır. Dünyada davamlı texnoloji inkişaf qlobal dəyər zəncirini sürətlə genişləndirir və onun coğrafiyasını böyüdür. Bu, qlobal əmtəə və xidmətlərin son istehlakçıya vaxtında, keyfiyyətli və aşağı qiymətə çatdırılmasına imkan verir. Rəqəmsal cəmiyyətin istehlakçıları sifariş etdikləri məhsulları bütün dəyər zənciri üzrə izləmək imkanına malikdirlər. Bu meyillərdən faydalanma ölkə iqtisadiyyatının qısa müddətdə qlobal dəyər zəncirinə inteqrasiyasına dəstək olacaq.

### Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişaf modeli

Strategiyada növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişaf modelinə də diqqət ayrılır və qeyd edilir ki, həyata keçirilən bu modelin başlıca nəticələri Azərbaycanın ərazi bütövlüyünün bərpası, beynəlxalq nüfuzunun artırılması, ölkənin iqtisadi potensialının gücləndirilməsi və əhalinin sosial rifah vəziyyətinin əhəmiyyətli yüksəldilməsi olub.

Bu model ölkədə ictimai-siyasi sabitliyi daha da gücləndirməklə dayanıqlı iqtisadi artım, yüksələn sosial rifah və davamlı sabitlik üçün zəmin yaradıb. İqtisadiyyatda neft gəlirlərindən effektiv istifadə etməklə gələcək inkişaf üçün şaxələnmə və ixrac potensialı yaradılıb. Bütün bu nəticələrin əldə olunmasında dövlətin səmərəli idarəetməsi həlledici rol oynayıb. Növbəti strateji dövrdə "Qüdrətli dövlət və yüksək rifah cəmiyyəti"nə çevrilmək üçün mövcud sosial-iqtisadi modelin məzmunu və strukturu əhəmiyyətli dərəcədə yenilənəcək. Bu əsasda qəbul edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" müasir inkişaf ideologiyasına əsaslanan yeni sosial-iqtisadi artım modelinin bazasında həyata keçiriləcək. Bu model ölkənin bütün resurslarını və nailiyyətlərini səfərbər etməklə, onları uzunmüddətli dövrdə qarşıya qoyulan strateji vəzifələrin reallaşmasına yönəldəcək.

Yeni sosial-iqtisadi inkişaf modeli 2030-cu ilədək olan dövrdə ölkədə bütün sahələrdə həyata keçirilməsi nəzərdə tutulan köklü islahatların ideologiyasını təmin edir. İdeologiyanın nüvəsində yaradıcı sahibkar, məhsuldar investisiyalar, innovasiyaları dəstəkləyən əqli mülkiyyətin inkişafı və rəqabətli bazarlar durur.

Bu sosial-iqtisadi inkişaf modelinin iki mərhələdə həyata keçirilməsi nəzərdə tutulur. Birinci mərhələdə (2022-2026-cı illər) sosial-iqtisadi inkişaf modelinin 2030-cu ilədək uğurla reallaşdırılması üçün təməl şərtlər işə salınacaq.

2027-2030-cu illəri əhatə edəcək ikinci mərhələdə isə bu təməl şərtlərin komplementarlığı şəraitində milli iqtisadiyyatın keyfiyyətcə yeni simasının yaradılmasına nail olunacaq.

### Çoxsahəli inkişafın yeni keyfiyyət səviyyəsi müəyyən ediləcək

Qarşıdakı onillikdə hərtərəfli tərəqqinin təminatı adlandırılan strategiyada qeyd edilir ki, 2022-2026-cı illərdə yeni sosial-iqtisadi inkişaf modeli Azərbaycanda çoxsahəli yüksəlişin yeni keyfiyyət səviyyəsini müəyyən edəcək. Bu mərhələdə başlıca məqsəd yüksək, dayanıqlı, inklüziv iqtisadi artım templərini bərpa etməklə, hər bir Azərbaycan Respublikası vətəndaşının sabit təminatlı həyat səviyyəsinə nail olmaqdır.

Bu zaman başlıca vektor artımın səviyyəsindən çox, onun keyfiyyətinə əsaslanacaq. Strateji dövrdə yeni artım modeli özəl təşəbbüslərə, keyfiyyətli və sağlam insan kapitalına söykənəcək. Dayanıqlı, inklüziv inkişafı təmin edən özəl təşəbbüslər və rəqabətqabiliyyətli açıq iqtisadiyyat modeli müasirləşmə strategiyasının əsas qüvvəsi olacaq. Rəqabətlilik ölkədə adambaşına düşən milli gəlirin uzunmüddətli dövrdə stabil artmasına və insanların həyat standartının yüksəldilməsinə imkan yaradacaq. İqtisadiyyatın rəqabətliliyi əsas təməl olan məhsuldarlığın dərinləşməsi hesabına artırılacaqdır. Bu strateji dövrdə özəl və məhsuldar investisiyalar, keyfiyyətli institutlar, müasir bilik və bacarıqları olan insan kapitalı, sağlam cəmiyyət, innovasiya və yeni texnologiyalar, həmçinin makroiqtisadi sabitlik yüksək məhsuldarlığı təmin edəcək.

İnkişafın əsas qüvvəsi sahibkar olduğundan, dövlət bütün qüvvəsini və resurslarını rəqabətli və dayanıqlı iqtisadi fəaliyyət mühitinin dəstəklənməsinə yönəldəcək. Bu model hamı üçün bərabər imkanlar və fürsətlər yaradacaq. Yalnız bacarıqlar bütün sahələrdə uğurun fundamental şərti olacaq.

Yeni sosial-iqtisadi inkişaf modelinin reallaşdırılması üçün ölkədə zəruri iqtisadi resurslar və müasir infrastruktur bazası mövcuddur. Qarşıdakı dövrdə sosial-iqtisadi inkişaf modeli əvvəlki dövrlərdə əldə edilmiş nailiyyətlərə əsaslanmaqla reallaşdırılacaq. Beynəlxalq nüfuza malik güclü lider, çətin dövrlərdə yüksək dövlət və vətəndaş həmrəyliyi, yeniliyə açıq və biliyi hər şeydən üstün tutan cəmiyyət, eləcə də uzun illər ərzində formalaşmış yüksək iqtisadi potensial yeni milli sosial-iqtisadi inkişaf modelinin uğurla həyata keçirilməsinin təminatıdır.

Əlverişli demoqrafik vəziyyətin mövcudluğu, iqtisadi fəal gənc əhalinin işçi qüvvəsinin ümumi strukturunda yüksək paya malik olması və gənclər tərəfindən yeni innovativ metodların dərindən mənimsənilməklə tətbiqi daha effektiv nəticələrin əldə olunması üçün fürsətlər yaradır. Bu fürsətlər sayəsində modelin aparıcı qüvvəsi olan vətəndaşın bilik, bacarıq və səriştələrinin artması onun gəlir qazanmaq imkanlarını genişləndirəcək və sağlam həyat tərzini təmin edəcək. Bilikli cəmiyyət müasir texnologiya və innovasiyaların həm yaradıcısına, həm də istifadəçisinə çevriləcək.

Əminliklə deyə bilərik ki, İlham Əliyevin milli maraqlara əsaslanan siyasəti qarşıdakı dövrdə də ölkənin hərtərəfli tərəqqisini təmin edəcək. Strategiyada göstərilən bütün istiqamətlərin uğurlu icrası ilə Azərbaycan Qafqazın siyasi və iqtisadi güc mərkəzi kimi mövqelərini daha da gücləndirəcək.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Sahibkarlığa dəstək davamlı və sistemlidir

Hər bir ölkənin iqtisadi və sosial inkişafının əsas təkanverici amillərindən biri sahibkarlıq və sərbəst biznes mühitidir. Ona görə sahibkarlıq fəaliyyəti üçün daha da əlverişli imkanların təmin olunması, bu məqsədlə mütəmadi olaraq islahatların aparılması Azərbaycan dövlətinin inkişaf strategiyasının məzmununu təşkil edir. Bütün bunların nəticəsidir ki, Azərbaycanın maliyyə imkanlarının artmasında, büdcə gəlirlərinin yüksəlməsində əsasən sahibkarların yer aldığı qeyri-neft sektorunun payı durmadan yüksəlir.

### Uğurlu islahatların nəticəsi

Ümumiyyətlə, son dövrlərin iqtisadi mənzərəsi Azərbaycanın qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləyən bir ölkə olduğunu, Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf kursunun özünü tam doğrultduğunu nümayiş etdirir. Bu baxımdan qazanılmış nailiyyətlər ölkə rəhbərinin inkişaf kursunun təməlində dərindən düşünülmüş elmi-iqtisadi əsasların, dövlətin və xalqın maraqlarının təmin olunmasının dayandığını göstərir. Dünyanın bir sıra yerlərində, o cümlədən inkişaf etmiş dövlətlərində yeni iqtisadi çətinliklərin meydana çıxdığı bir vaxtda Azərbaycan iqtisadiyyatının nümayiş etdirdiyi artım tempi həyata keçirilən islahatların səmərəliliyindən xəbər verir.

Son illərdə ölkəmizdə vergi sistemindəki yeniliklər, lisenziyaların verilməsinin və biznesə başlama prosedurlarının sadələşdirilməsi, yoxlamaların aradan qaldırılması, yerli istehsalın və ixrac imkanlarının dövlət tərəfindən stimullaşdırılması, "Made in Azerbaijan" brendi altında məhsullarımızın dünyada tanıdılması istiqamətində görülən işlər sahibkarlığın inkişafına və bütövlükdə qeyri-neft sektorunun yüksəlişinə təkan verməkdə, iqtisadi inkişafı yeni mərhələyə qaldırdı. 2017-ci ildə yaradılan Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) yaradılması sahibkarlığın inkişafına dövlət dəstəyinin mükəmməl nümunəsidir. Bu cür addımlar davamlı iqtisadi inkişafın təmin edilməsi məqsədilə kiçik və orta biznesin iqtisadi inkişafda rolunun, ÜDM-də və məşğulluqda payının artırılmasına xidmət edir. Qeyd edək ki, bütün dünyada olduğu kimi, Azərbaycanda da mikro, kiçik və orta biznes iqtisadiyyatın hərəkətverici qüvvəsi, dayanıqlı və davamlı inkişafının açarıdır. Azərbaycanda sahibkarların təqribən 99,6 faizini kiçik və orta biznes subyektləri təşkil edir. Bunun 93,3 faizi mikro, 4,5 faizi kiçik və 1,8 faizi orta sahibkarlıq subyektləridir. Ölkəmizdə kiçik və orta biznes subyektləri, əsasən, ticarət, tikinti, emal, kənd təsərrüfatı, logistika və digər sahələrdə fəaliyyət göstərirlər. Ötən il 2020-ci illə müqayisədə bu il kiçik və orta biznes subyektlərinin dövriyyəsi orta hesabla 85 faiz artıb.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu tərəfindən sosial-iqtisadi inkişafın prioritet istiqamətləri üzrə sahibkarlıq subyektlərinin layihələri güzəştli kredit vəsaiti hesabına maliyyələşdirilir. Fond tərəfindən bu günədək müvəkkil kredit təşkilatları vasitəsilə 41 mindən çox layihə maliyyələşdirilib və bu məqsədlə 2,7 milyard manatdan artıq güzəştli kredit vəsaiti ayrılıb. Layihələrin 90,7 faizi kənd təsərrüfatı məhsullarının istehsalını əhatə edib və bu məqsədlə 1,4 milyard manat vəsait ayrılıb.

### Özəl bölmənin ÜDM-də payı daha da çoxalır

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və uğurlu islahatlar nəticəsində ölkəmizdə özəl sektor iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib. Sahibkarlığın ÜDM-də payı 80 faizi ötüb. Sahibkarlığın məşğulluqda payı isə 80 faizə yaxındır. Özəl bölmənin dövlət dəstək alətlərindən daha geniş istifadəsi qeyri-neft sektorunda müasir texnologiyalara əsaslanan yeni istehsal və emal müəssisələrinin, infrastruktur sahələrinin yaradılmasına, real sektora investisiya qoyuluşlarının sürətlənməsinə əlverişli şərait yaradır. Prezident İlham Əliyevin rəhbərliyi ilə biznes mühitinin əlverişliliyinin yüksəldilməsi və dövlət təşviqlərinin verilməsi siyasəti ölkəyə sərmayə cəlbini və sərmayə qoyuluşunun səmərəliliyini artırır.

Bütün bunların nəticəsidir ki, 2022-ci ilin ötən dövrü ərzində qeyri-neft iqtisadiyyatının özəl bölməsi ilə bağlı qeydə alınan göstəricilər olduqca müsbətdir. Məsələn, bu ilin yanvar-iyun aylarında bu sahədən vergi daxilolmaları 35 faizdən çox artıb. Hazırda özəl bölmənin qeyri neft-qaz vergi daxilolmalarında xüsusi çəkisi 75 faizi üstələyir. 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə cari il iyun ayının 1-də sahibkarlıqla məşğul olan fiziki şəxslərin bank hesablarının sayının 47 faiz artması da ölkədəki əlverişli biznes mühitinin uğurlu göstəricisi kimi dəyərləndirilə bilər.

Əldə edilən uğurlu göstəricilər həm də şəffaflığın və hesabatlılığın nəticəsidir. Prezident İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə bununla bağlı deyib: *"Ona görə iqtisadi sahədə aparılan islahatlar imkan verdi ki, 6 ayda vergilər sahəsində proqnozdan əlavə 2 milyard manat pul yığıldı. Nə üçün? Çünki şəffaflıq var, dürüstlük var, hesabatlılıq var. Biznes dairələrinə bir neçə il bundan əvvəl möhlət verilmişdi ki, onlar da normal relslərə keçsinlər, daha o kölgə iqtisadiyyatından əl çəksinlər. Onlara himayədarlıq edənlərə də, necə deyərlər, dərs verildi. Ona görə 6 ayda 2 milyard manat əlavəni ancaq vergi orqanları yığıbdır və biz bundan istifadə edirik. İlin sonuna hələ təxminən 6 ay var. Budur, bizim maliyyə-iqtisadi imkanlarımızın əsas faktoru".*

Respublikamızda həyata keçirilən iqtisadi siyasət şəffaf və nümunəvi biznes mühitini formalaşdırıb. Bunu nüfuzlu beynəlxalq reytinq təşkilatları da öz hesabatlarında dəfələrlə göstəriblər. Eyni zamanda özəl bölmə dövlət tərəfindən həyata keçirilən stimullaşdırıcı mexanizmlərdən də uğurla faydalanır. Azərbaycanda sahibkarlığın inkişafına bundan sonra da diqqət göstəriləcək, sağlam biznes mühiti təmin olunacaq.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Prezidentin rəhbər işçilərdən tələbi sadə, amma qətidir

## Qanunlara əməl etmək, ədalətli olmaq, xalqın qayğısına qalmaq

Azərbaycan Prezidenti İlham Əliyev bu günlərdə 3 rayona yeni icra başçılarını vəzifə təyinatı ilə bağlı qəbul edərkən dövlətin kadr siyasətinin əsas istiqamətlərini bircə cümlə ilə belə çatdırdı: "İlk növbədə rayonlarda vəziyyət geniş təhlil olunmalıdır, mövcud nöqsanlar aşkar edilməli və aradan qaldırılmalıdır".

Ümumiyyətlə, son illər Prezident tərəfindən yeni təyinatlarla bağlı keçirilən bütün qəbullar, bir qayda olaraq, ciddi təhlillər, nöqsanların araşdırılması, kadr siyasətində yeni sinergetik yanaşmanın tətbiqi ilə səciyyələnir. Uğurlar qısaca sadalanır, əsas diqqət isə nöqsanların araşdırılıb həll olunmasına və perspektivlərin təyin edilməsinə yönəldilir.

Bütün ölkə boyu regional inkişaf dövlət proqramlarının icrası nəticəsində böyük quruculuq işləri görülmüş, o cümlədən infrastruktur layihələri icra edilmiş və bununla problemlərin böyük hissəsi həllini tapmışdır. Elektrik enerjisi və təbii qazla təchizat, yol infrastrukturu, suvarma və içməli su layihələri icra edilmiş, hər rayonda müasir xəstəxana və yeni məktəblər inşa olunmuşdur. Dövlət başçısının tələbi yerli rəhbər kadrların yeni çağırışlara cavab vermək qabiliyyətinə malik olmalarıdır. Bu baxımdan Prezident sözügedən qəbulda bəzi kadrlara sərt tənqidi münasibət sərgiləyərək bir neçə keçmiş icra başçısının cinayət məsuliyyətinə cəlb edildiyini xatırlatması, heç kimin qanundan sığortalanmadığını diqqətə çatdırması təsadüfi deyil: "Mən bütün icra başçılarını vəzifəyə təyin edərkən göstərişlərimdən biri o idi ki, korrupsiyaya, rüşvətxorluğa qarşı biz amansız mübarizə aparmalıyıq və icra başçıları burada nümunə olmalıdırlar. Əfsuslar olsun ki, bəziləri əyri yolla gediblər və bu gün bunun acısını çəkirlər. Bu, hər bir dövlət məmuru üçün dərs olmalıdır".

Azərbaycanın 44 günlük müharibədə qazandığı qələbə, həyata keçirilən genişmiqyaslı layihələr insanların şüurlarında dönüş yaratmış, xüsusən rəhbər işçiləri daha məsuliyyətli və xalqa daha yaxın olmağa sövq etmişdir. Prezidentə görə, dövlət məmurunun fəaliyyətinin ana xəttini məhz bu keyfiyyətlər təşkil etməlidir: "Siz daim insanlarla təmasda olmalısınız. Bütün kəndlərdə olmalısınız, kənd camaatının qayğıları ilə yaşamalısınız, onları narahat edən problemləri onların dilindən eşitməlisiniz və imkan daxilində bu problemləri həll etməlisiniz".

Dövlət başçısı həmçinin yeni təyinat alan icra başçılarının timsalında rəhbər işçiləri fəaliyyətlərində sosial ədalət prinsiplərinə əməl etməyə çağırmışdır. Və bu zaman ilk növbədə şəhid ailələrinə xüsusi diqqət göstərilməsinin vacibliyini vurğulamışdır. "Dövlət tərəfindən bu diqqət daim göstərilir. İkinci Qarabağ müharibəsindən əvvəl və İkinci Qarabağ müharibəsindən sonra şəhid ailələri daim diqqət mərkəzindədir. Bilirsiniz ki, mənim şəhid ailələri, müharibə əlilləri ilə çoxsaylı görüşlərim olub. Onların məişət problemləri dövlət xətti ilə həll olunur, 12 min 500-dən çox şəhid ailəsinə dövlət tərəfindən mənzillər, fərdi evlər verilmişdir, minlərlə minik maşınları verilmişdir", - deyən Azərbaycan Prezidenti dövlətin göstərdiyi bu diqqət və qayğıkeşliyi yerli icra orqanlarının davam etdirmələrinin zəruruliyini qeyd etmişdir: "Rayon icra orqanlarının nümayəndələri onlara biganə qalmasınlar, əksinə, daim onların yaşayışı ilə maraqlansınlar, onların məşğulluğu ilə maraqlansınlar".

Həqiqətən, biz qələbəyə görə şəhidlərimizə, müharibə əlillərinə və iştirakçılarına borcluyuq. Azərbaycan Ordusu və xalqı Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən savaşında görünməmiş iradə nümayiş etdirmişdir: "...biz öz iradəmizi ortaya qoyduq, heç nəyə baxmadan, heç kimdən çəkinmədən, "öldü var, döndü yoxdur" deyərək torpaqlarımızı azad etdik. Bu, dövlət siyasətidir və dövlətin gücüdür, vətəndaşlarımızın həmrəyliyidir. Amma onu da heç kəs unutmamalıdır ki, azad edilmiş torpaqlarımıza bayrağımızı sancan bizim qəhrəman əsgər və zabitlərimiz olub".

Əgər dövlət başçısı Azərbaycan xalqına və əsgərinə belə yüksək dəyər verirsə, bu o deməkdir ki, hər bir dövlət məmurunun, hər birimizin müqəddəs borcu Prezidentin təyin etdiyi bu meyarları qorumaqdır. Başqa sözlə desək, Azərbaycan əsgərinin qürurunu, mənliyini göylərə bayraq kimi qaldırmaq bütün vəzifə sahiblərinin və hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. "Yenə də deyirəm, dövlət və mən Prezident kimi daim onların problemləri ilə maraqlanıram, bu problemləri həll edirəm, daim onlarla bir yerdəyəm. Hər bir dövlət məmuru da, bax eyni hərəkətlər etməlidir", - deyən Azərbaycan Prezidenti həmçinin qanunun əleyhinə gedən məmurlara qarşı barışmaz mövqe tutduğunu bir daha xatırlatmış, onları məmur nüfuzunu daha şərəflə qorumağa dəvət etmişdir: "Bunu mən sizə deyirəm və bütün dövlət orqanlarının nümayəndələrinə deyirəm, eyni zamanda qanunsuz işlərlə məşğul olmaq istəyən insanlara deyirəm: Əl çəkin bundan! Cəzalandırılacaqsınız və cəzalandırılırlar. Biz kiminsə tamahına, kiminsə şəxsi maraqlarına görə ölkəmizin uğurlu inkişafına kölgə sala bilmərik".

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

# Mahaçqalada görkəmli dövlət xadimi Əziz Əliyevin 125 illiyi qeyd edilib





Rusiya Federasiyasının Mahaçqala şəhərində Dağıstan Respublikasının və Azərbaycan Respublikasının görkəmli dövlət xadimi Əziz Əliyevin 125 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.



Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, tədbir Mahaçqala Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyətinin təşkilatçılığı ilə reallaşıb.

Mərasimdə yerli icra hakimiyyətlərinin, ictimai və milli mədəniyyət təşkilatlarının, həmçinin kütləvi informasiya vasitələrinin nümayəndələri, Rusiya Federasiyasının digər bölgələrindən gələn qonaqlar iştirak ediblər.

Yubiley mərasimini giriş sözü ilə açan milli siyasət və dini işlər naziri Enrik Müslümov bildirib ki, İkinci Dünya müharibəsinin ağır dönəmində Dağıstana rəhbərlik etmiş Əziz Əliyev hər iki respublikanın görkəmli oğullarından biridir. Qeyd edib ki, Əziz Əliyev Dağıstanın mədəniyyətinin, iqtisadiyyatının, səhiyyəsinin, elm və təhsilinin inkişafına, onun müstəqil və vahid çoxmillətli respublika kimi dövlət statusunun qorunub saxlanmasına böyük töhfələr verib.

Digər çıxış edənlər görkəmli dövlət xadimi Əziz Əliyevin mənalı ömür yolundan, Azərbaycanda dövlət idarəçiliyinin formalaşmasında, səhiyyə sisteminin və tibb təhsilinin təkmilləşdirilməsində xidmətlərindən danışıb, tədbirin təşkilinə görə Rusiyada yaşayan azərbaycanlılar adından minnətdarlıqlarını bildiriblər.

"İnquşetiya Xalqları Assambleyası"nın fəxri nümayəndəsi Mədinə Barxoyeva İnquşetiya Respublikasının xarici əlaqələr, milli siyasət, mətbuat və informasiya naziri Vaxi Bekovun tədbir iştirakçılarına ünvanladığı məktubu oxuyub.

Tədbir Azərbaycanın görkəmli oğlunun Mahaçqaladakı abidəsinin ziyarət olunması ilə yekunlaşıb. Mərasim iştirakçıları abidənin önünə gül dəstələri düzüb, Əziz Əliyevin xatirəsini ehtiramla yad ediblər.

# "Dünyanın gələcəyi gənclərin əlindədir"

"Qoşulmama Hərəkatının gənclər sammitinin keçirilməsi tarixi hadisədir. Bu sammitdə qəbul ediləcək sənədin əhəmiyyəti böyükdür. Burada gənclər öz təcrübələrini, fikirlərinizi bölüşüblər".



AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatının gənclər sammitinin iyulun 28-də keçirilən bağlanış mərasimində çıxışı zamanı söyləyib. O bildirib ki, gənclərin gücü bütün dünya üçün əvəzsiz bir dəyərdir. Azərbaycanda da gənclərin fikirlərinə xüsusi əhəmiyyət verilir. Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində bir sıra təkliflər irəli sürüb ki, onlardan biri də Gənclər şəbəkəsinin yaradılmasıdır.

"Dünyanın gələcəyi gənclərin əlindədir. Davam edən pandemiya və digər çağırışlar bizə diktə edir ki, ənənəvi və qeyri-ənənəvi çağırışlarla mübarizədə yeni yollar tapaq. Gənclərin böyük enerjisini nəzərə alaraq, onlara dəstək göstərərək parlaq gələcək yaratmalıyıq", - deyə nazir qeyd edib.

# AHİK sədri həmkarlar ittifaqlarının Xaçmaz və Qusarda yerləşən istirahət mərkəzlərinə baxış keçirib

İyulun 28-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev həmkarlar ittifaqlarının Xaçmaz rayonunun Nabran qəsəbəsində və Qusar rayonunda yerləşən istirahət mərkəzlərinə baxış keçirib.



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Xaçmaz rayonunda "Xəzər", "Şahdağ", "Ülfət", "Lokomotiv", "Təhsil", Qusar rayonunda isə "Şəfa" istirahət mərkəzlərində olan Səttar Möhbalıyev burada dincələn şəxslərin qaldıqları korpus otaqlarını və kottecləri gəzib, onların istirahəti üçün yaradılmış şəraitlə yaxından tanış olub. İstirahət mərkəzlərinin yeməkxanalarına və ərazilərinə də baxış keçirilib.

AHİK sədri həmçinin mərkəzlərdə istirahət edən insanlarla söhbət edib, istirahətləri ilə maraqlanıb, fikirlərini və təkliflərini öyrənib.

İstirahət edənlər onların dincəlməsi üçün yaradılmış şəraiti yüksək qiymətləndirib və təşəkkürlərini bildiriblər. Sonra S.Möhbalıyev mədəniyyət işçiləri üçün Nabran qəsəbəsində yeni tikilən istirahət mərkəzində görülən işlərlə tanış olub.

# Tank heyətlərinin peşəkarlığı artırılır



Bu ilin döyüş hazırlığı planına uyğun olaraq ümumqoşun poliqonunda Azərbaycan Ordusunun tank heyətləri ilə döyüş hazırlığı məşğələləri keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tank heyətləri minalanmış sahələri, təbii və süni maneələri dəf etdikdən sonra şərti düşmən hədəflərinin, həmçinin tank əleyhinə vasitələrin yerində və hərəkətdə məhv edilməsi üzrə tapşırıqları uğurla icra ediblər.

Məşğələlərdə əsas diqqət tank bölmələrinin döyüş hazırlığının yüksəldilməsinə və heyət üzvlərinin fərdi bacarıqlarının təkmilləşdirilməsinə yönəldilib.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ADMİNİSTRASİYASININ VƏTƏNDAŞ QƏBULU MƏRKƏZİNDƏ

### 2022-ci ilin avqust ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 1 |
| **Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 2,5,26 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 3, 22 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Əliyev Məhərrəm Abış oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 12 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 18 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 19 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 23 |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 24 |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 25 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 26 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 26 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 29 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79**

**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**

**Qəbul saat 14:00-dan başlayır.**

**Əlaqə üçün: Çağrı mərkəzi - 1111**

# Məhərrəm ayının başlanması ilə əlaqədar Dövlət Komitəsində müşavirə olub

İyulun 28-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) Məhərrəm ayının başlanması ilə bağlı müşavirə keçirilib. Müşavirədə DQİDK sədrinin müavinləri, Mərkəzi Aparat və bölgə şöbələrinin müdirləri iştirak ediblər.



DQİDK-dan AZƏRTAC-a bildirilib ki, komitə sədri Mübariz Qurbanlı ölkədəki dini durum və gündəlikdəki məsələlər barədə ətraflı məlumat verərək Məhərrəm ayının başlanması ilə əlaqədar DQİDK-nın üzərinə düşən vəzifələrə toxunub, bununla əlaqədar Mərkəzi Aparat və bölgə şöbələrinin fəaliyyətlərini daha da gücləndirməli olduğunu deyib. Məscidlərdə və digər ibadət yerlərində dini mərasimlərin icrası zamanı Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının verəcəyi fətvanın tələblərinə ciddi riayət olunmasının vacibliyini diqqətə çatdıran M.Qurbanlı dini mərasimlərin mahiyyətinə uyğun, xurafat elementlərindən uzaq təşkil edilməsini xüsusi olaraq vurğulayıb.

"Dini etiqad azadlığı haqqında" qanuna bir sıra dəyişikliklərin edilməsinin qarşımıza ciddi vəzifələr qoyduğunu bildirən komitə sədri İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması üçün elan edilən sənəd qəbulunun artıq yekunlaşdığını və avqustun 2-dən etibarən müsahibənin başlayacağını qeyd edib. Din pərdəsi altında İslamı təhrif edən, xurafatı, cəhaləti yayan, insanlar arasında ixtilafa səbəb olacaq çağırışlar edən, məzhəb ayrı-seçkiliyi salan qüvvələrə qarşı ilahiyyatçılarımızın, dini icmalarımızın üzərinə də böyük məsuliyyət düşdüyünü nəzərə çatdıran M.Qurbanlı din xadimlərinin Vətənə, milli-mənəvi dəyərlərimizə, o cümlədən azərbaycançılıq ideologiyasına bağlı olmalarının önəmini vurğulayıb. O, müasir dövrümüzün tələblərinə cavab verən, zəngin dünyagörüşünə, dərin dini və dünyəvi biliklərə, güclü şəxsiyyətə malik mütəxəssislərin yetişdirilməsində Azərbaycan İlahiyyat İnstitutunun roluna diqqət çəkib.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov və bölgə şöbə müdirləri gündəlikdəki məsələlərlə bağlı fikirlərini bölüşdükdən sonra müvafiq tapşırıq və tövsiyələr verilib.






# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan qazına tələbat daha da artıb



**Prezident İlham Əliyev: "Perspektivli yataqlardan çıxarılacaq qazı həm daxili tələbatı ödəmək üçün, eyni zamanda ixrac üçün də nəzərdə tutmuşuq"**

Azərbaycandan mavi yanacaq alan ölkələr idxal etdikləri qazın həcmini artırmaq istədiklərini bildirirlər. Bir sıra digər ölkələr də Azərbaycan qazının istehlakçıları sırasına qoşulmaq qərarlarını bəyan edirlər.

Bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə Prezident İlham Əliyev Azərbaycan qazına tələbatın kəskin artdığını bir daha vurğulayıb. Dövlət başçısı energetika, o cümlədən "yaşıl enerji" məsələlərinə toxunaraq bildirib ki, bu növ enerjinin istehsalı qaza qənaət etməyə və onun ixracını artırmağa imkan verəcək.

Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunda da qaz ixracının artırılması məsələsi önəmli yer tutur. Bununla bağlı bəyanatında Avropa Komissiyasının Prezidenti xanım Ursula fon der Lyayen deyib: "Biz Azərbaycandan Avropa İttifaqına təchiz edilən qazın həcmini ikiqat artıracağıq. Bu memorandum vasitəsilə biz "Cənub qaz dəhlizi"nin genişləndirilməsi ilə bağlı üzərimizə öhdəlik götürürük. Bu, artıq Avropa İttifaqı üçün çox vacib təchizat marşrutudur və onun vasitəsilə ildə 8 milyard kubmetr qaz nəql edilir. Biz bir neçə il ərzində onun ötürücülük imkanını 20 milyard kubmetrə çatdıracağıq. Gələn ildən biz 12 milyard kubmetr göstəriciyə çatacağıq".

Qeyd edək ki, cari ilin 6 ayı ərzində ölkədə 23,4 milyard kubmetr təbii qaz hasil olunub. Bunun 6,9 milyard kubmetri "Azəri-Çıraq-Günəşli" yataqlarından, 12,6 milyard kubmetri "Şahdəniz"dən, 3,9 milyard kubmetri SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) üzrə çıxarılıb. Ötən ilin müvafiq dövrünə nisbətən 15,1 faiz, yəni 3,1 milyard kubmetr artımla qaz hasil edilib.

Energetika Nazirliyinin məlumatına görə, bu ilin birinci yarısında xaricə 11,2 milyard kubmetr qaz satılıb. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 25,7 faiz çoxdur. Yanvar-iyun aylarında Türkiyəyə 4,3 milyard kubmetr, Avropaya 5,4 milyard kubmetr, Gürcüstana 1,5 milyard kubmetr qaz çatdırılıb. Bu dövrdə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri sisteminə 55 milyon kubmetr qaz verilib. Həmin müddətdə Türkiyəyə TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri) 2,9 milyard kubmetrə yaxın qaz nəql olunub. Yunanıstana TAP-la (Trans-Adriatik Qaz Boru Kəməri) 540 milyon kubmetr qaz ixrac edilib.

Bu və digər rəqəmlər bir daha təsdiqləyir ki, Azərbaycan Bolqarıstan, Yunanıstan da daxil olmaqla, Avropa ölkələri üçün şaxələndirilmiş qaz təchizatının sabit və strateji mənbəyi, həm də etibarlı tərəfdaşdır. Bir ildən artıq müddətdə Avropaya 13,5 milyard kubmetr qaz tədarük olunub. Bunun 1,4 milyard kubmetri Yunanıstanın, 440 milyon kubmetri isə Bolqarıstanın payına düşüb. Bolqarıstana ilk 6 ayda 160 milyon kubmetr olan qaz ixracının ilin sonuna 600 milyon kubmetrə çatacağı planlaşdırılır. İyulun 1-dən Bolqarıstana tam həcmdə, hər gün 2,6 milyon kubmetr qaz ixrac edilir ki, bu da gündəlik tədarükdə 1,7 milyon kubmetr artım deməkdir.

Artıq Azərbaycan təbii qazını Bolqarıstana nəql edəcək Yunanıstan-Bolqarıstan İnterkonnektorunun (IGB) açılışı da olub. IGB-nin reallaşması TAP-ın inkişafında mühüm bir mərhələnin başlanğıcı, "Cənub qaz dəhlizi"nin yeni qollarla şaxələnməsinin göstəricisi kimi dəyərləndirilir. Xatırladaq ki, "Bulgargaz EAD" "Şahdəniz-2" çərçivəsində ildə 1 milyard kubmetr qazın alınması ilə bağlı 2013-cü ilin sentyabrında 25 illik saziş imzalayıb. 2019-cu ilin mayında isə Bolqarıstanın Kirkovo bölgəsində interkonnektorun təməlqoyma mərasimi keçirilib.

IGB-nin açılışı Bolqarıstanın, ümumən Cənub-Şərqi Avropanın şaxələndirilmiş enerji təchizatında, istehlakçıların sərfəli və təmiz enerjiyə çıxışında strateji əhəmiyyətli hadisədir. Başqa sözlə, IGB-nin qarşıdakı illərdə "Cənub qaz dəhlizi"nin genişləndirilməsi istiqamətində yeni layihələrin müjdəçisidir. Məsələn, Serbiya 2023-cü ildən etibarən Azərbaycan təbii qazını idxal etməyi nəzərdə tutur. Bunu Serbiyanın energetika və mədənçilik sənayesi naziri Zorana Mixayloviç deyib. Nazir bildirib ki, Serbiya ilə Bolqarıstan arasında boru kəmərinin inşasının tamamlanması ilə ölkəsi gələn ildən Azərbaycandan qaz almağa başlaya bilər. Bolqarıstanla boru kəmərinin istifadəyə verilməsi sayəsində Serbiya, həmçinin Yunanıstan üzərindən maye təbii qaz almaq imkanı əldə edəcək.

Qaz ixracının artırılması bir sıra şərtlərlə bağlıdır ki, bunların sırasında hasilatın artırılması önəmli yer tutur. Hazırda Xəzərin Azərbaycan sektorunda bir sıra ümid verən yataqlarda iş gedir və yaxın gələcəkdə onlardan hasilata başlanacağı gözlənilir. Dövlət başçısı ilin altı ayının yekunlarına həsr olunan müşavirədə bu barədə demişdir: "Perspektivli yataqlardan çıxarılacaq qazı həm daxili tələbatı ödəmək üçün, eyni zamanda ixrac üçün də nəzərdə tutmuşuq. Hələ ki, bizim ixrac resurs bazamız "Şahdəniz" yatağıdır. Amma yaxın gələcəkdə "Abşeron", "Şəfəq", "Asiman", "Ümid-Babək" və "Azəri-Çıraq-Günəşli"nin dərin qaz adlandırılan yataqlarından qaz hasilatı gözlənilir. Yəni çox böyük resursdur və bütün sadaladığım layihələr üzrə fəal işlər gedir".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## 6 ayda pensiya ödənişlərinə 2,4 milyard manatdan çox vəsait yönəldilib

Cari ilin yanvar-iyun aylarında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 4,5 faiz (104 milyon manat) çox olmaqla 2 milyard 443 milyon manat vəsait yönəldilib.

Bu ilin əvvəlindən növbəti artım olaraq minimum aylıq pensiya daha 20 faiz artırılaraq 240 manata çatdırılıb.

2022-ci ilin əvvəlindən pensiyaların sığorta hissəsi indeksləşdirilib və sığorta prinsipi ilə pensiya alanlara bu il üzrə 200 manat maddi yardım ayrılıb. Habelə qulluq stajına görə əlavələr alan pensiyaçılara bu ilin əvvəlindən pensiyalarının 10 faizi məbləğində aylıq maddi yardım ödənilir.

Həmin artımlar üçün illik 440 milyon manat əlavə vəsait ayrılıb.

Son 6 ayda pensiyaların orta aylıq məbləği 11 faizədək artaraq 364, yaşa görə orta aylıq pensiya isə 10,2 faiz artaraq 395 manata çatıb.

2019-cu ilin əvvəlindən pensiya, müavinət və təqaüd təyinatları elektronlaşdırılıb. Ötən dövrdə 64 mini pensiya, qalanı müavinət və təqaüd olan 430 min, o cümlədən bu ilin yanvar-iyun aylarında 15,6 mini pensiya, qalanı müavinət və təqaüd olan 160 min təyinat proaktiv olaraq e-qaydada aparılıb.

## Milli Observatoriyanın yaradılmasından 3 il ötür

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın üç illiyi münasibətilə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində tədbir keçirilib.

Tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, ali təhsil müəssisələrinin, Azərbaycan Türk İş Adamları Birliyinin (ATİB) rəhbər şəxsləri və tədqiqat mərkəzlərindən nümayəndələr iştirak ediblər.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli Prezident İlham Əliyevin müvafiq fərmanına əsasən, nazirliyin tabeliyində publik hüquqi şəxs olaraq yaradılan Milli Observatoriyanın sosial islahatlar prosesində önəmini vurğulayıb.

Nazir müavini əmək bazarı və sosial müdafiə sahələrində mövcud vəziyyətin qiymətləndirilməsi, inkişaf meyillərinin öyrənilməsi üzrə monitorinqlərin aparılması, səmərəli idarəetmə qərarlarının qəbul edilməsi məqsədilə təhlil və proqnozlar hazırlanması istiqamətlərində qurum tərəfindən məqsədyönlü işlərin görüldüyünü qeyd edib.

V.Nəsirli Milli Observatoriyanın nazirliyin təlim bazası kimi də peşəkar mütəxəssislərin hazırlanması və təlim proqramlarının tərtibində əhəmiyyətli rolunu diqqətə çatdırıb.

Milli Observatoriyanın İdarə Heyəti sədrinin müavini Elnur Səfərli əmək, məşğulluq, sosial müdafiə sahələri üzrə təkmil monitorinq, təhlil, proqnozlaşdırma sisteminin yaradılması istiqamətində qurumun fəaliyyətindən bəhs edib. Qurumda aparılan tədqiqatlara dair məlumatlar verilib. İşçilərin fəaliyyətinin qiymətləndirilməsi, eləcə də göstərilən xidmətlərin keyfiyyətinin ölçülməsi və optimallaşdırılması üzrə xidmətlərin də hazırlanmaqda olduğu qeyd edilib.

Observatoriyada keçirilən təlimlərdən bəhs olunub. Sorğu müayinə mərkəzi olaraq qurumda yeni xidmətlərin bazar araşdırmasının, vətəndaş və işçi məmnuniyyəti sorğularının həyata keçirildiyi də bildirilib.



Vurğulanıb ki, Milli Observatoriya təhlil və tədqiqat mərkəzi olaraq regionda aparıcı beyin mərkəzlərindən birinə çevrilməyi hədəfləyir.

ATİB sədri Cemal Yaygın və gözdən əlilliyi olan professor Elnur Eyvazov fəxri qonaq qismində çıxış ediblər.

Tədbir DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində musiqi istiqaməti üzrə təlim kurslarındakı əlilliyi olan şəxslərin ifalarından ibarət konsert proqramı ilə yekunlaşıb.

## İyul ayının müavinət, təqaüd, ünvanlı yardımları da ödənildi

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən iyul ayının bütün müavinət, təqaüd və ünvanlı dövlət sosial yardımları ödənilib.

Vətəndaşlar bu sosial ödənişlərini onlara verilmiş kartlar vasitəsilə müvafiq bankların bankomatlarından əldə edə bilərlər. Beləliklə, bütün sosial təminat növləri üzrə iyul ayının sosial ödənişləri dünən yekunlaşıb.

## Tikinti sektorunda fəaliyyət göstərən sahibkarların təklifləri dinlənilib

Tikinti materiallarının istehsalı sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektləri ilə görüş keçirilib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) AZƏRTAC-a bildirilib ki, onlayn formatda təşkil olunmuş görüşdə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Dövlət Vergi Xidməti, Fövqəladə Hallar Nazirliyi yanında Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi, Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi, Sahibkarlığın İnkişafı Fondunun nümayəndələri və 40-a yaxın sahibkarlıq subyekti iştirak ediblər.

Görüşdə sektor üzrə KOB subyektlərinin qarşılaşdıqları çətinliklər və təkliflər dinlənilib, sahibkarları maraqlandıran suallar cavablandırılıb.

## Dövlət-özəl tərəfdaşlığına həsr edilmiş seminar keçirilib

Asiya İnkişaf Bankının (AİB) "Azərbaycan Dövlət-Özəl Tərəfdaşlığının İnkişafı Mərkəzi və Layihələrin İnkişafı Fondunun dəstəklənməsi" layihəsinin ölkəmizdə səfərdə olan missiyasının iştirakı ilə İqtisadiyyat Nazirliyində seminar keçirilib.

Aidiyyəti dövlət qurumlarının nümayəndələrinin də iştirak etdiyi tədbirin keçirilməsində məqsəd dövlət-özəl tərəfdaşlığı layihələrinin seçilməsi alətlərinin müəyyən edilməsidir.

İqtisadiyyat nazirinin müşaviri Emil Məcidov ölkəmizlə AİB arasında əməkdaşlığın uğurlu inkişafını qeyd edib, dövlət-özəl tərəfdaşlığı modelinin tətbiqi istiqamətində ölkəmizin geniş potensiala malik olduğunu, bu istiqamətdə gələcək fəaliyyətlərin həyata keçirilməsi üzrə beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Seminarda AİB-in ekspertləri tərəfindən layihə seçimi təlimatı üzrə təqdimatlar keçirilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## Kapital qoyuluşunda qeyri-dövlət sektorunun payı yüksəkdir

**Ölkəmizdə iqtisadi inkişaf sürətlənir, məhsul istehsalı və ixracı artır, dövlətin gəlirləri çoxalır ki, bu da sabit maliyyə mühitinin yaranmasına müsbət təsir göstərir. Cari ilin yanvar-may aylarında xarici ticarətdə 11 milyard 77 milyon dollar müsbət saldonun yaranması isə ölkəyə daha çox valyutanın daxil olduğunu göstərir.**



Gəlirlərin əsas mənbəyi neft-qaz ixracı olsa da, qeyri neft-qaz ixracında da yüksək artım dinamikası müşahidə olunur. Məlumdur ki, bu sahədə əsas rolu sənaye zonaları oynayır. Təkcə Sumqayıt Kimya Sənayesi Parkında 6 ay ərzində ümumilikdə 5,86 milyard manatlıqdan artıq məhsul istehsal olunub ki, bunun da 2,15 milyard manatlıqdan çox hissəsi ixrac edilib. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-iyun aylarında sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 11,5 faiz artıb. Həmin dövrdə ümumi istehsalın 94,2 faizi sənaye məhsullarının istehsalının payına düşüb.

Ölkənin iqtisadi inkişafında müşahidə olunan müsbət dinamikada sərmayə qoyuluşu mühüm rol oynayır. Dövlət Statistika Komitəsinin verdiyi məlumatda qeyd edilir ki, cari ilin yanvar-iyun aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 6 milyard 299,6 milyon manat və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz çox vəsait yönəldilib. Neft-qaz sektoruna yatırılan investisiyaların həcmi 20,7 faiz azalsa da, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 18,5 faiz artıb. Ümumi sərmayənin 3 milyard 781,3 milyon manatı məhsul istehsalı, 2 milyard 131,2 milyon manatı xidmət obyektlərinin, 387,1 milyon manatı isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Ölkədə sahibkarlığın inkişafı kapital qoyuluşunda da özünü göstərir. Belə ki, hesabat dövründə ümumi sərmayənin 54,7 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulub. Yatırılan kapitalın 72,5 faizi tikinti-quraşdırma işlərinə sərf olunub. Sərmayə qoyuluşunda daxili mənbələr üstünlük təşkil edib.

Hesabat dövründə əsas kapitala yönəldilən vəsaitdə müəssisə və təşkilatların payı 3 milyard 350,8 milyon, büdcə vəsaitləri 1 milyard 964,8 milyon, əhalinin şəxsi vəsaitləri 476,1 milyon, sair vəsaitlər 317,5 milyon, bank kreditləri isə 190,4 milyon manat olub.

Əsas kapitala yönəldilən ümumi vəsaitin 44,8 faizi sənaye, 26,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 18,6 faizi tikinti, 2,8 faizi kənd təsərrüfatı, meşə və balıqçılıq təsərrüfatlarının inkişafına sərf edilib.

Cari ilin yanvar-iyun aylarında neft-qaz sektoruna 2 milyard 250,1 milyon manat vəsait yönəldilib. Qeyri neft-qaz sektorunun inkişafına sərf edilən vəsaitin 9,1 faizindən qeyri neft-qaz sənayesi sahəsində istifadə olunub.

Ölkəmizdəki münbit investisiya mühiti xarici sərmayədarlar üçün də cəlbedicidir. Dünyadakı mürəkkəb siyasi və istisadi proseslərə baxmayaraq, Azərbaycana xarici sərmayənin qoyuluşu davam edir. Təkcə hesabat dövründə xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 1 milyard 606,3 milyon manat vəsait yönəldilib. Xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilən vəsaitin 94,6 faizi Birləşmiş Krallıq, İsveçrə, ABŞ, Yaponiya, Türkiyə, Norveç, Rusiya, İran, Hindistan və Fransa sərmayədarlarına məxsus olub.

Cari ilin yanvar-iyun aylarında Bakıda Tədris və Xidmət Kompleksi, "Xanım Fatimeyi Zəhra" məscidinin yeni binası, "Qobu" yarımstansiyası və "Qobu" Elektrik Stansiyası, Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzi, Azərbaycan İlahiyyat İnstitutunun yeni binası, 7 saylı "ASAN xidmət", "Bilim Bakı" mərkəzləri, Sabunçunun Kürdəxanı qəsəbəsində 304 nömrəli tam orta məktəb, şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksi, 110/35/10 kilovoltluq elektrik yarımstansiyası, Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzi, Gəncədə Gəncə Dövlət Dram Teatrının yeni binası, həmçinin "ASAN xidmət" mərkəzi, Gəncə Lokomotiv Deposu, Ağcabədidə Daxili İşlər Nazirliyi Daxili Qoşunların hərbi şəhərciyi, Şuşa Rəqəmsal İdarəetmə Mərkəzi, Kəlbəcərdə "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyası və s. mühüm əhəmiyyətli obyektlər tikilərək istifadəyə verilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Meşəətrafı yaşayış məntəqələrinin qazlaşdırılması müzakirə edilib

Meşəətrafı yaşayış məntəqələrinin qazlaşdırılması və bu istiqamətdə birgə fəaliyyətin perspektivləri müzakirə olunub.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi və "Azəriqaz" İB yanında fəaliyyət göstərən İctimai Şuralar arasında keçirilən növbəti görüş bu mövzuya həsr edilib.

İB-dən verilən məlumata görə, görüşdə ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, "Azəriqaz" İB-nin baş direktoru Ruslan Əliyev və hər iki qurumun struktur bölmələrinin rəhbər şəxsləri də iştirak ediblər.

Görüş zamanı respublika ərazisində ətraf mühitin, xüsusilə meşə sahələrinin qorunması və onların bərpası məqsədilə meşə sahələrinə yaxın yerləşən, təbii qazdan istifadə etməyən yaşayış məntəqələrində mərhələli şəkildə müvafiq infrastrukturun qurulması istiqamətində perspektiv fəaliyyət planının hazırlanması və planın reallaşdırılması üçün İctimai Şuralar tərəfindən dəstək göstərilməsi məsələləri müzakirə olunub.

Tədbirdə vətəndaş cəmiyyəti nümayəndələrinin təklif və tövsiyələri dinlənilib, qarşılıqlı fikir mübadiləsi aparılıb, ictimaiyyətin məlumatlandırılması məqsədilə koordinasiyalı fəaliyyətin həyata keçirilməsi və belə görüşlərin bundan sonra da davam etdirilməsinin vacibliyi vurğulanıb.






# Gənclik






● Qarabağ Azərbaycandır!



# 60-dan çox ölkənin gənc nümayəndəsi Azərbaycandadır

### Bakıda keçirilən sammit Qoşulmama Hərəkatına üzv ölkələrin gəncləri arasında əməkdaşlığın möhkəmlənməsinə töhfə verəcək

**Ölkəmizin paytaxtı bu günlərdə daha bir beynəlxalq tədbirə evsahibliyi edir. Qoşulmama Hərəkatına (QH) üzv ölkələrdən olan gənclərin sammiti iyulun 25-də öz işinə başlayıb. Sammit iyulun 29-dək davam edəcək.**

Tədbirdə Qoşulmama Hərəkatına üzv olan 60-dan çox ölkənin gənc nümayəndəsi iştirak edir. Sammitin açılış mərasimində gənclər və idman naziri Fərid Qayıbov Azərbaycan Prezidenti İlham Əliyevin iştirakçılara ünvanlanmış müraciətini səsləndirib.

Müraciətdə Azərbaycanda gənclər siyasətinə müstəsna əhəmiyyət verildiyi, hazırda ölkəmizdə keçirilməkdə olan bu tədbirin hərəkat ölkələrinin gəncləri arasında əməkdaşlığın möhkəmləndirilməsinə töhfə verəcəyi diqqətə çatdırılıb. Dövlət başçısının müraciətində Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyinə diqqət yetirilib. Bildirilib ki, hərəkata üzv ölkələrin yekdil qərarı ilə ölkəmizin QH-yə sədrliyinin daha bir il - 2023-cü ilin sonunadək uzadılması sədrliyimizin müvəffəqiyyətlə həyata keçirildiyinin və üzv dövlətlərin Azərbaycana etimadının bariz nümunəsidir.

Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 76-cı sessiyasının sədri Abdulla Şahid iştirakçılara videomüraciətində Qoşulmama Hərəkatının gənclər sammitinin təşkilində və gənclərlə bağlı məsələlərin həllində Azərbaycan hökumətinin fəaliyyətinin təqdirəlayiq olduğunu diqqətə çatdırıb. Postpandemiya dövründə dünyanın bərpasında gənclərin fəal iştirakının təmin edilməsinin əhəmiyyətini qeyd edən Abdulla Şahid vurğulayıb ki, hər bir aktual mövzunun müzakirəsində, qərarvermə prosesində gənclərin iştirakı lazımdır və labüddür. O deyib ki, BMT və onun institutlarında inklüzivlik və fərqlilik indi daha vacib olub. Qoşulmama Hərəkatı dünyanın müxtəlif nöqtələrindən olan gənclər üçün mədəni mübadilə istiqamətində platforma təklif edir və bu, çox vacibdir.

Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin hazırkı sədri Orduxan Qəhrəmanzadə çıxışında ötən ilin noyabrında yaradılmış şəbəkənin həyata keçirdiyi işlərdən, gələcək planlarından danışıb.

Tədbirdə sammitin iştirakçıları, QH Gənclər Şəbəkəsinin üzvlərindən başqa, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyinin müvafiq nümayəndələri, Milli Məclisin deputatları, QH-yə üzv ölkələrin Azərbaycanda akkreditə olunmuş səfirləri, ölkəmizdə fəaliyyət göstərən gənclər təşkilatlarının rəhbərləri, media nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Qoşulmama Hərəkatına üzv ölkələrin gəncləri milli qisimdə fikirlərini bildiriblər.

Tədbirin proqramına uyğun olaraq sammitin müxtəlif seqmentləri çərçivəsində iştirakçılar tədbirin yekun sənədlərini müzakirə edəcək, QH modeli simulyasiya məşğələsi, həmçinin təşkilatların effektiv idarə edilməsi barədə təlim sessiyasında iştirak edəcək, müxtəlif rəsmilərin də olduğu panel müzakirələrə qatılacaq, təqdimatlar keçirəcəklər.

Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin sədri Orduxan Qəhrəmanzadə jurnalistlərə müsahibəsində ötən ilin oktyabrında təsis olunan Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin ilk beynəlxalq sammitinin keçirildiyini vurğulayıb. Qeyd edib ki, dövlətimizin başçısı İlham Əliyevin Qoşulmama Hərəkatına sədrliyi dövründə irəli sürdüyü iki əsas təşəbbüsdən biri Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin təsis olunması idi və bu, bir ilkdir. "Qoşulmama Hərəkatının ilk dəfə Azərbaycanda beynəlxalq simulyasiya konfransını keçirəcəyik. Sammitin son günündə Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfərimiz nəzərdə tutulub. Burada Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsinin Qoşulmama Hərəkatı Gənclər Təşkilatı adlandırılması ilə bağlı müzakirələr aparacağıq".

Qeyd edək ki, ölkəmiz bu təşkilata 2019-cu ildən uğurla rəhbərlik edir. Təşkilatın inkişafına böyük tarixi töhfələr verdiyi nəzərə alınaraq Qoşulmama Hərəkatı təmsilçisi olan ölkələrin yekdil rəyi ilə Azərbaycanın quruma sədrliyi daha bir il - 2023-cü ilin sonunadək uzadılıb. Qoşulmama Hərəkatı BMT-dən sonra bütün dünyada ölkələri bir araya gətirən ikinci ən böyük təşkilatdır. Bu təşkilatda 120 ölkə təmsil olunur.

Xatırladaq ki, bu ilin 30 iyununda ölkəmizin paytaxtında Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransı keçirildi. Qoşulmama Hərəkatının sədri, Azərbaycan Prezidenti İlham Əliyev konfransdakı proqram xarakterli çıxışında müasir beynəlxalq münasibətlər sistemində bu qurumun yeri və rolunu, həyata keçirdiyi missiyanı, qarşıya qoyduğu hədəfləri nəzərə çatdırdı.

Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi yaradıldı və Parlament Şəbəkəsinin ilk toplantısı keçirildi. Belə bir platformanın Qoşulmama Hərəkatının fundamental dəyər və prinsiplərinin təşviqində, təşkilata üzv dövlətlər tərəfindən qəbul edilmiş qərarlara parlament dəstəyinin təmin olunmasında çox mühüm rol oynayacağı şübhəsizdir.

Azərbaycanın Qoşulmama Hərəkatının sədri qismində irəli sürdüyü təşəbbüslərin həmrəyliyi və qarşılıqlı dəstəyi möhkəmləndirməyə yönəldiyini diqqətə çatdıran Prezident İlham Əliyev deyib: "İndi institusional inkişaf istiqamətində daha çox addımların atılması üçün düzgün vaxtdır və bu da öz növbəsində bizə beynəlxalq arenada maraqlarımızı qorumağa və əlbəttə ki, ölkələrimiz arasında həmrəyliyin gücləndirilməsinə kömək edəcək".

Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi təkcə bu hərəkatdakı ölkələr arasında həmrəyliyə töhfə verməyəcək, eyni zamanda dünyanın müxtəlif parlament təşkilatları ilə sıx əməkdaşlıq münasibətləri quracaq. Qoşulmama Hərəkatının inkişafı üçün atılmış daha bir əhəmiyyətli addım isə məhz hərəkatın Gənclər Şəbəkəsinin qurulması olub. Gənclər şəbəkəsinin formalaşdırılması bu təşkilatın mühüm təşəbbüslərindən biri kimi dəyərləndirilir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Vətənpərvərlər

# Qalib xalqı təmsil etmək böyük məsuliyyətdir

**İdman sahəsində uğurlarımız ildən-ilə artır. Azərbaycan artıq beynəlxalq səviyyədə idman tədbirlərinin keçirildiyi bir ölkəyə çevrilib. Fərəh hissi ilə qeyd etmək lazımdır ki, bu gün ölkəmiz beynəlxalq idman ailəsində layiqli yerini tutub. Bu uğurların təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan siyasi kursla bağlıdır. 1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda idman sahəsi də inkişaf etməyə başladı. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva idmanın inkişafına xüsusi diqqət göstərir.**




"Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bizim idman nəticələrimiz, uğurlarımız, qələbələrimiz, eyni zamanda idmana dövlət tərəfindən göstərilən dəstək, dövlət proqramlarının icrası, əlbəttə ki, beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir". Bu sözləri Prezident İlham Əliyev Milli Olimpiya Komitəsində 2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdə deyib. Ölkə rəhbəri bildirmişdir ki, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, beynəlxalq federasiyalar bizim fəaliyyətimizə çox yüksək qiymət verirlər: "Ən əsas məsələ ondan ibarətdir ki, Azərbaycanda idmanın kütləviliyi təmin edilir, idmanla məşğul olmaq istəyən gənclərin sayı kəskin artır, biz bunu görürük, izləyirik. Biz buna görə görkəmli idmançılarımıza minnətdar olmalıyıq".

Yunan-Roma güləşi üzrə Rio Olimpiadasının mükafatçısı, dünya çempionu **Rəsul Çunayev** dövlətin bu sahəyə yüksək diqqət və qayğısının olduğunu söyləyir: "Həm hazırlıq, həm də beynəlxalq arenalarda çıxış dövründə həmişə cənab Prezidentin idmana olan dəstəyini hiss etmişik. Bunun nəticəsidir ki, idmançılarımız ölkəmizi layiqincə təmsil ediblər. Çempionlarımızın sayı gündən-günə artır. Əminəm ki, bundan sonra da idmançılarımızın beynəlxalq arenalarda qazandığı uğurların sayı artacaq. Vətən müharibəsində əldə etdiyimiz qələbədən sonra biz daha da sürətlə inkişafa doğru gedirik".

Azərbaycan yunan-Roma güləşçisi, dünya və Avropa çempionu **Eldəniz Əzizli** dövlət başçısının son aylarda iki dəfə onları qəbul etdiyini dedi: "Hər kəsə məlumdur ki, cənab Prezident idmana, o cümlədən güləşçilərə xüsusi qayğı göstərir. Bildiyiniz kimi, son aylarda iki dəfə ölkə rəbbəri bizi qəbul edib. Bu il biz Avropa çempionu olmuşuq. Görüşdə mənə söz verildi. Qazandığımız medallar haqqında danışdım. Prezidentin bizə olan son dərəcə yüksək diqqəti bizi daha da həvəsləndirir. Fəaliyyətimizə yüksək səviyyədə diqqət var. Bu da bizi sevindirir".

### Bölgələrdə gənclərin idmana marağı artır

Uşaq, yeniyetmə və gənclər arasında fiziki tərbiyə və idmanın təşviqi gənclər siyasətinin prioritetlərindəndir. Bu məqsədlə bir sıra idman məkanları istifadəyə verilib. Diqqətçəkən əsas məqamlardan biri də bədən tərbiyəsi və idmanın ölkəmizin bütün regionlarında kütləvi xarakter almasıdır. Buna nail olmaq üçün müxtəlif bölgələrdə olimpiya kompleksləri, stadionlar tikilib və tikilməkdə davam edir.

Bu gün iftixarla deyə bilərik ki, Azərbaycan gəncləri öz intellektlərinə və vətənpərvərliklərinə görə fərqlənirlər. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, güclü Azərbaycan hamımızın qürur mənbəyidir. Ölkəmizin evsahibliyi etdiyi beynəlxalq səviyyəli tədbirlər, gənclərimizin istər ölkə daxilində, istərsə də xaricdə keçirilən forumlarda fəal iştirakı bir daha bu həqiqəti ortaya qoyur ki, hər bir azərbaycanlı respublikamızın daha da qüdrətlənməsinə, beynəlxalq nüfuzunun artmasına öz töhfəsini verməyə səy göstərir.

### Tarix yazan gəncliyimiz

İdmançılarımız beynəlxalq səviyyəli yarışlarda ölkəmizi qalib xalq kimi təmsil edirlər. 44 günlük Vətən müharibəsi zamanı ön cəbhədə döyüşən qəhrəmanların əksəriyyəti də məhz gənclər idi. Bu onu göstərir ki, gənclərimiz öz xalqına, öz vətəninə daim bağlıdırlar. Onlar mərdi-mərdanə ağır döyüşlərdə iştirak etdilər, ölkə Prezidentinin "dəmir yumruğ"u ətrafında sıx birləşdilər, bu sınaqdan üzüağ çıxdılar. Gənclər və İdman Nazirliyindən aldığımız məlumata görə, Vətən müharibəsində iştirak edən idmançılardan 321 nəfəri şəhidlik zirvəsinə ucalıb.

Prezident müharibə zamanı xalqa müraciətlərinin birində Azərbaycan gəncinin düşmənə dərs verdiyini bəyan etmişdi: "Bu gün də onların dövlətinin rəhbərləri gecə-gündüz yalan, uydurma yayırlar Azərbaycan haqqında, döyüş meydanında baş verən hadisələr haqqında. Sanki kimsə gəlib bizim əvəzimizə vuruşur. Azərbaycan xalqı, Azərbaycan gəncləri, Azərbaycan əsgəri onlara dərs verir. Təkbaşına vuruşuruq, hər kəs bunu bilir".

Müharibədə gənclərin hamısı döyüşlərdə qəhrəmancasına iştirak etdi. Onlar bütün dünyaya Azərbaycan gəncinin nəyə qadir olduğunu göstərdilər. Həqiqətən də, bu illər ərzində vətənpərvərlik ruhunda yetişmiş gənclərimiz bir addım belə geri çəkilməyərək 44 günlük Vətən müharibəsində qəhrəmanlıqlar göstərdilər.

Bu gün hər bir azərbaycanlının qarşısında erməni vandalizminin nəticələrini dünyaya göstərmək vəzifəsi dayanır. Bu, çox məsuliyyətli işdir. Dövlətimiz tərəfindən xaricdə təhsil almağa göndərilən gənclər Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında xüsusi rol oynayırlar. Xaricdə yaşayan azərbaycanlı gənclər vasitəsilə dünya ictimaiyyətinə ölkəmiz haqqında məlumatların çatdırılması prosesi sürətləndirilib. Mərd, qətiyyətli gəncliyimiz bundan sonra da Prezident İlham Əliyevin ətrafında sıx birləşərək dövlətə və Vətənə sədaqət nümunəsi olacaqlar.

*Elşən YƏHYAYEV,*
*"Azərbaycan"*

● Ölməzliyə qovuşanlar

# "Onunla keçən hər gün uzun bir ömrə bərabər idi"

**Xüsusi Təyinatlı Qüvvələrin zabiti, "Yaşma" taborunun qərargah rəisinin müavini, kəşfiyyatçı, şəhid kapitan Elçin Mübariz oğlu İsmayılov 30 may 1989-cu ildə Ucar rayonunda anadan olub. Ailənin ilk övladı olan Elçin 2006-cı ildə orta məktəbi bitirərək Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub.**

2010-cu ildə Azərbaycan Ali Hərbi Məktəbini əla qiymətlərlə bitirdikdən sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə zabitlərin təkmilləşdirmə kursuna dinləyici kimi göndərilən Elçin İsmayılov oranı da yüksək nəticə ilə başa vurub.

Elçin 2011-ci ilin iyul ayından Ağcabədi rayonunda "N" sayli hərbi hissənin V motoatıcı taborunda taqım komandiri kimi xidmətə başlayıb. Bir müddət qulluq etdikdən sonra komandanlığa raport yazaraq könüllü olaraq XTQ-yə keçmək niyyətində olduğunu bildirib. 2012-ci ildə Xüsusi Təyinatlı Qüvvələrdə qulluq etmək üçün kursa cəlb edilmiş 300 nəfər hərbi qulluqçunun içindən seçim mərhələsinə çıxan 19 nəfərdən biri olub. Elçin İsmayılov dəfələrlə Türkiyədə hərbi təlimlərdə iştirak edib, sertifikatlar, fəxri fərmanlar və medallarla mükafatlandırılıb.

2012-ci ilin iyul ayının 8-dən XTQ-də xidmətini davam etdirən Elçin İsmayılov "N" saylı hərbi hissədə qrup komandirinin müavini, 2014-cü ilin mart ayında isə elə həmin hissədə xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrup komandiri vəzifəsində xidmətini davam etdirib.

Qəhrəman hərbçimiz 2015-ci ilin fevral ayında Qazax və Ağstafa istiqamətindəki döyüşlərin fəal iştirakçısı olub. 2016-cı ildə Elçin Aprel döyüşlərində Talış kəndi istiqamətində gedən savaşda iştirak edib.

2015-ci ilin oktyabr ayından 2016-cı ilin yanvar ayınadək amerikalı təlimatçılar tərəfindən Goran Təlim Mərkəzində "Special Operations Training" kursunu başa vuraraq sertifikat alıb. 2018-ci ilin iyul ayında Türkiyə Respublikasında "Anadolu Tatbikatı" təlimində iştirak edən Elçin 2019-cu ilin iyul ayında pakistanlı təlimatçılar tərəfindən Giləzi Tədris Mərkəzində keçirilən "Dağlarda döyüş" xüsusi kursunu da uğurla yekunlaşdırıb.

Döyüş yoluna Murovdağ zirvəsinin fəthindən başlayan qərargah rəisinin müavini kapitan Elçin İsmayılov Cəbrayıl rayonunun işğaldan azad edilməsində xüsusi fəallıq göstərib. Oktyabrın 4-də ilk dəfə Cəbrayılda Azərbaycan bayrağı əfsanəvi qəhrəman kapitan Elçin Mübariz oğlu İsmayılov tərəfindən ucaldılıb.

E.İsmayılovun göstərdiyi rəşadət yüksək qiymətləndirilərək ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları və "Rəşadət" ordeni ilə təltif olunub.

Şəhid kapitanın ömür-gün yoldaşı Sevinc İsmayılova Elçinlə keçən günləri barədə deyir:

- Elçin elə insan idi ki, onunla bir gün bir yerdə olmaq bütöv bir ömrü xoşbəxt yaşamaq demək idi. Cəsur idi, qayğıkeş idi. Sözü bütöv idi. Elçin bu dünyanın adamı



deyildi. O, hər şeydən yüksəkdə durmağı bacarırdı. Elçindən ancaq öyrənmək olardı. Onu ilk dəfə görəndə elə zənn etdim ki, ömrü boyu ona tərəf yol gəlirəmmiş... İlk tanışlıqdan ona inandım, etibar etdim... Zaman da göstərdi ki, düz seçim etmişəm. 2012-ci il oktyabrın 7-də Ucarda toyumuz oldu. Zabitlə ailə qurmayan şərəfli bir zabitin ömür-gün yoldaşı olmağın nə olduğunu bilə bilməz. Ötkəm, bütöv bir kişinin xanımı olmaq xoşbəxtliyini yaşatdı mənə və övladlarımıza. Kəşfiyyatçı idi. Elə olurdu ki, gedib aylarla evə gəlmirdi. Bilirdim ki, Vətən üçün, millət üçün ev-eşiyindən uzaq düşüb. Çalışıram ki, balalarımızı Elçinin adına layiq böyüdüm. Elə də edəcəyəm. Vətən üçün böyüdəcəyəm... Elçin evdə olanda evimizin daşı da, divarı da gülürdü. Hər şey dil açıb danışırdı. Məndən soruşsanız ki, dünyanın ən böyük bayramı, ən gözəl günü hansıdır, çox qısa cavab verərərdim ki, Elçinli günlərimiz.

Sonuncu dəfə kəşfiyyatdan gələndən sonra 10 gün evdə qaldı. Döyüşə gedəndə dedi ki, Sevinc, hər şeyə hazır ol. Müharibədir, bunun gedişi var, dönüşü yoxdur. Əgər mənə bir şey olsa, uşaqlarımızı mərd böyüt. Onlara de ki, atanız bu həyatda sizi utandıracaq heç bir iş görməyib. Canını Vətəninə, bayrağına qurban verib ki, siz qürurla, xoşbəxt yaşaya biləsiniz.

Şəhid kapitan Elçin İsmayılovun döyüş yoldaşı ilə də söhbət etdik. O, Elçin İsmayılovla birgə keçdikləri döyüş yolundan iftixarla danışdı:

- Elçin elə bir yoldaş idi ki, nəinki döyüşmək, onunla birgə ölmək də bizə xoş olardı. Elçin mənəviyyat adamı idi. Apardığımız müharibənin haqq olduğuna inanırdıq. Birlikdə ilk döyüşümüz Murovda oldu. Çox ağır döyüş keçdi. Hətta ilk döyüş zamanı mühasirəyə düşdük. Elçinin fövqəladə bacarığı sayəsində mühasirəni yarıb çıxdıq.

Murovdağ silsiləsində çox böyük strateji əhimiyyətli zirvəni götürüb, 3-4 gün orada qaldıq, mövqelərimizi möhkəmləndirə bildik. Sonra tapşırıq gəldi ki, Cəbrayıla gedin. Cəbrayılın azad olunmasında da qəhrəmanımızın müstəsna xidmətləri oldu. Oktyabrın 4-də Cəbrayılda Azərbaycan bayrağını ilk dəfə kapitan Elçin İsmayılov qaldırdı.

Biz kənd Horadizin ərazisinə yaxşı bələd idik. Həm də cəmi bir neçə gün öncə bu əraziləri düşməndən təmizləyib, ordu qüvvələrinə təhvil vermişdik və Cəbrayıla kurs götürmüşdük. Hətta biz kənd Horadizdə döyüşərkən qəhrəman komandirimiz Elçin İsmayılov əlbəyaxa döyüş zamanı düşmənin Komanda İdarəetmə Məntəqəsinə girərək, düşmən polkovnikinin sinəsinə çöküb, "Sənə general Polad Həşimovdan salam gətirmişəm" - deyərək onun başını bədənindən ayırmışdı. Biz yenidən həmin əraziyə qayıtmışdıq. Təbii ki, düşmən kəşfiyyatı da işləyirdi. Onlarda da bizim, Elçinin qrupunun orada olması haqqında məlumat var idi. Elçin İsmayılov vəziyyəti öyrənib dərhal tanklara döyüş tapşırığı verdi. Tankın önünə keçərək birbaşa hərəkət istiqamətlərini və necə edəcəklərini özü müəyyənləşdirdi... Təpənin üstündə görünən ilk 3 düşmən tankı dərhal yerindəcə məhv edildi. Düşmən artıq təlaş içində idi. Elçin çox gözəl işləyirdi... O, döyüşün ustası idi. Verdiyi koordinatlarla "Spayk"larımız düşməni göz açmağa qoymurdu. Elçin bu arada tankın qarşısına keçdi ki, onun gözlüyündən ekipaja növbəti hədəfi vurmaq üçün komanda versin, tanka yol göstərsin. Elə bu anda qəfildən yıxıldığını gördük. Elə zənn etdik ki, tankın atəş zərbəsinin küləyi onu yıxdı. Amma bilirdik ki, Elçini zərbə yıxa bilməz. Onun zərbə mövqeyinə çıxması, çoxdan fürsət gözləyən düşmənə imkan vermişdi ki, cəsur komandirimizi vursun. Düşmən "KORD" snayperi ilə (çapı 12 mm) Elçini düz sinəsindən nişan almışdı.

Elçinin ömür-gün yoldaşı Sevinc İsmayılova:

- Oktyabrın 7-si idi. Saat 4 olardı. Toyumuzun 8 ili tamam olan gün idi. Hazırlıq görmüşdüm… Elə bil birdən Elçinin ətri burnuma gəldi. Dedim bir zəng vurum halını, əhvalını soruşum. Zəng etdim, zəngimə səsini tanımadığım, yad bir adam cavab verdi. Tez telefonu söndürdüm. Ani olaraq ürəyimdə qəribə hisslər baş qaldırdı. Bunun nə demək olduğunu anlamağa çalışırdım. Elçin kəşfiyyatçı idi. Dünyasında telefonunu kiməsə verməyəcəyini bilirdim. Əsir düşə biləcəyini də ağlıma gətirmədim. Elçini dörd bölüb öldürərdilər, nə qədər nəfəsi üstündədirsə, onu əsir almaq mümkün olmazdı. Özünü öldürərdi, amma erməniyə əsir düşməzdi. Təkrar nömrəni yığdım, bu dəfə nömrəsinə zəng çatmadı. Anladım ki, Elçinə bir şey olub. Elə toyumuzun ildönümü günü, xöşbəxtliyimizin, birliyimizin 8-ci ilinin tamam olduğu gün Elçin ruhunu göylərə təslim etdi… Bu an bacım zəng edib, Elçinin yaralandığını dedi. Amma mən anladım ki, Elçinlə bir də cənnətdə görüşə biləcəm...

Şəhidin böyük oğlu Öməri sakit dinləmək olmur:

-Mən atamla fəxr edirəm. Atam bizim xoşbəxt gələcəyimiz üçün öz canından keçib. Biz Yaşmada, kiçik hərbçi mənzilində yaşayırdıq. Atam hərbi formada evimizə gələr, bizi ürəyinin üstə saxlayardı. Yatanda da heç əynindən formasını çıxarmazdı. İşdən çağırsaydılar, tez gedə bilsin deyə… İndi atam yoxdur. Kaş sağ olaydı, yenə evimizdə yatdığını görə biləydim. Boynuna sarılıb ona sənin kimi atam olduğu üçün çox xoşbəxtəm deyə biləydim. Atamın başıma sığal çəkən əlini görmək istəyirəm...

Vətən onun yetişdirdiyi igid oğulları, qəhrəman övladları ilə Vətən olur. Elçinlər tökdükəri qanları ilə torpağımızı Vətən, bayrağımızı uca, üzümüzü ağ, başımızı dik etdilər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# "QARABAĞ"ın İsveçrə zəfəri

## Ağdam klubu avrokuboklarda daha bir parlaq səhifə açdı




**UEFA Çempionlar Liqası, 2-ci təsnifat mərhələsi, cavab qarşılaşması**

*"Sürix" (İsveçrə) - "Qarabağ" (Azərbaycan) - 2:2*
Qollar: Maksim Medvedev, 4-avtoqol (1:0), Kadi Borqes, 50 (1:1), Santini, 90+5 (2:1), Ovusu Kvabena, 98 (2:2)
Hakimlər: Allard Lindhout (Niderland)
İsveçrə. "Letsiqrund" stadionu.
*İlk oyun - 2:3*



"Qarabağ" klubu, onun baş məşqçisi Qurban Qurbanov, sözün əsl mənasında, Azərbaycan futbolunda, onun Avropada sözünü deməsində böyük uğurlara imza atmaqdadır. Klubun UEFA Çempionlar Liqasının 2-ci təsnifat mərhələsinin cavab qarşılaşmasında İsveçrədə "Sürix" komandası ilə 2:2 hesabı ilə oynayaraq iki oyunun nəticəsinə əsasən adını üçüncü mərhələyə yazdırması təqdirəlayiq hadisədir.

Azərbaycan futbol tarixində ardıcıl 9 mövsümdür avrokuboklarda qrup mərhələsini təmin edən (ən azı Konfrans Liqasında qrupda iştirak edəcək) Ağdam klubu bu nailiyyətə gərgin zəhmət, əzmlə çalışmaq nəticəsində nail olub.

Sürixdə qarşılaşmaya maraq həddindən artıq böyük idi. Oyun da gərgin mübarizə şəraitində keçdi. Qarşılaşmanın ilk 10 dəqiqəsində Ağdam klubu meydançanın rəqibə aid hissəsində pressinq tətbiq edərək "Sürix"in oyun qurmasına maneçilik törətmək istəyirdi. Ümumiyyətlə, Ağdam klubunda məşqçilər korpusu ilk oyunda buraxdığı səhvləri təhlil edib nəticə çıxarmışdı. Komandamız çox diqqətli və ağıllı oynadı. Topu "Sürix"ə verib mövqe seçimini düzgün etdi, intizamı pozmadı. Lakin gözlənilmədən start həyəcanını üzərindən atmayan kapitan Maksim Medvedev qapıçı ilə anlaşılmazlıq nəticəsində topu öz qapısına vurdu. Bu qol "Qarabağ"a "soyuq duş" kimi təsir etdi. Digər tərəfdən, baş məşqçi Qurban Qurbanov oyun planını dəyişməli oldu. Komandasının topa daha çox sahib olaraq ikinci və üçüncü zonada pressinq tətbiq edərək "Sürix"in topu daha sürətli oyuna daxil etməsinə problem yaşatdı. Qarşılaşmanın müəyyən hissələrində bu planın baş tutduğunu qeyd etmək lazımdır.

İsveçrədə də 4-3-3 oyun formatı ilə meydançaya çıxan Ağdam klubu ilk oyuna nəzərən müdafiənin arxasına atılan toplarda və standart vəziyyətlərdə çox diqqətli oldu. Daha çox qısa ötürmələrə üstünlük verərək meydançanın mərkəzində "Sürix"li futbolçuları yormağı bacardı. Bununla da qarşılaşmanın əsas vaxtının son 10 dəqiqəsinə kimi matç tempini aşağı düşürdü və oyuna nəzarəti tam ələ almaq imkanı yarandı. Bunun öhdəsindən gəlmək üçün həm toplu, həm də topsuz oyunda hazırlıqlı, ötürmələrdə daha sürətli idi. "Qarabağ"da Marko Yankoviç boş zonaları çox yaxşı bağladı. Birinci və üçüncü zona arasında əlaqəni, balansı yaxşı qorudu.

Ötən matça nisbətən start heyətində tək dəyişiklik Ozobiçin yerinə meydançada Ramil Şeydayevin oynaması idi. Ramil həm hücumda, həm də geri dönüşlərdə boş zonalara vaxtında düşməklə mühüm işlər gördü. İkili mübarizələrdə rəqibə çətin anlar yaşatdı. Şeydayev qol duyumu baxımından Ozobiçdən geri qalsa da, müdafiə olunmada möhtəşəm çıxış etdi.



Görüşün başa çatmasına dəqiqələr qalmış buraxılan qol və yekunda matçın əlavə vaxta getməsi "Qarabağ"lı futbolçularda psixoloji düşkünlük yaratmadı. Bu, çox önəmli məqamlardan biri idi. Eyni zamanda Qurban Qurbanov əvvəldən bildirdiyi kimi, geri çəkilərək komandasını müdafiədə oturmağa məcbur etmədi, açıq futbol taktikasına sadiq qaldı. Meydançanın rəqibə aid hissəsində qalaraq rəqibin müdafiədən rahat ötürmə etməsinə problem yaşatdı. Bir sözlə, Qurban Qurbanov ilk oyundan sonra "Sürix"i düzgün təhlil etməklə rəqibə qarşı üstünlük qurmağı bacardı. Abdulla Zubirin və Ovusunun tez-tez cinahları dəyişməsi "Sürix"in müdafiə xəttində balansın pozulmasına səbəb oldu. Bu boşluqlardan da istifadə edərək Ovusu görüşdə bərabərlik qoluna imza atdı-2:2.

Xatırladaq ki, qarşılaşmadan əvvəl təhlil apararkən qeyd etmişdik ki, müdafiənin cinahlarında daha sayıq görünən İsveçrə çempionu mərkəzdə heç də uğurlu deyil. Çünki matçın müəyyən hissələrində bəzən sağ və ya sol cinah müdafiəçiləri hücuma qoşularkən itirilən toplardan sonra geriyə qayıtmada ciddi problem yaşayırdılar. Vurduğumuz qollar da məhz belə epizodlardan sonra yarandı. Yekunda "Qarabağ" səbirli, həyəcana yol vermədən "Sürix"i məğlub edib Azərbaycan adına daha bir zəfərə imza atdı.

Onu da qeyd edək ki, niderlandlı baş hakimin xüsusilə ikinci hissə və əlavə vaxtda meydan sahiblərinə simpatiya bəslədiyi açıq-aydın sezilirdi. O, ağdamlılara sarı vərəqə payladığı vaxtda "Sürix"li futbolçunun Yankoviçin sifətinə zərbə endirən qırmızı vərəqəlik hərəkətini görməməzliyə vurdu.

Vurğulayaq ki, UEFA Çempionlar Liqasının 3-cü təsnifat mərhələsindəki rəqibimiz Macarıstan çempionu "Ferentsvaroş"dur. İlk qarşılaşma avqustun 3-də Bakıda, cavab matçı isə bir həftə sonra Budapeştdə oynanılacaq.

Uğurlar, "Qarabağ!"

***Elçin CƏFƏROV, "Azərbaycan"***







# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | | |
|---|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 | 1 illik<br>124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 | |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 | 6 aylıq<br>62,40 (altmış iki manat qırx qəpik) manat |
| "Səma-M" MMC | (012) 594-09-59 | |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 | 3 aylıq<br>31,20 (otuz bir manat iyirmi qəpik) manat |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 | Hörmətli oxucular!<br>Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz. |
| "City press" MMC | (055) 819-09-26 | |

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC

## *açıq tender elan edir*

LOT-1. Bakı şəhəri, Nərimanov rayonu, Ülvi Bünyadzadə küçəsi, 776-cı məhəllədə yerləşən Cümə məscidinin bərpa-gücləndirmə işlərinin davam etdirilməsinin satın alınması.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev ünvanında yerləşən "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC-dən (əlaqələndirici şəxs: Əhməd Məmmədov, tel: (050)612-15-27) ala bilərlər.

**İşlərin qısa təsviri:**

Bakı şəhəri, Nərimanov rayonu, Ülvi Bünyadzadə küçəsi, 776-cı məhəllədə yerləşən Cümə məscidinin bərpa-gücləndirmə işlərinin davam etdirilməsi.

Tenderdə iştirak haqqı: **1000,00 (bir min) AZN**
**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN:1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT-IBAZAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tender iştirakçıları tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü ərzində qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi ölkə, rekvizitləri;
- malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar;
- malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;
- iddiaçının avadanlığı və texnikası barədə məlumatlar;
- analoji işlərdə təcrübə (Analoji iş dedikdə tarixi binaların bərba işləri nəzərdə tutulur).

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

Tender iştirakçıları tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **30.08.2022-ci il saat 11:00-a qədər**, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **08.09.2022-ci il saat 17:00-a qədər Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev** ünvanında yerləşən "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC-yə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. Tender iştirakçılarının təklifləri **Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev** 17 ünvanında yerləşən "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC-də **09.09.2022-ci il saat 11:00-da** açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi keçmiş iş yoldaşları

**KƏMALƏ RƏHİMOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifova əmisi

**FİRDOVSİ RÜSTƏM OĞLU ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mərkəzi Bankın rəhbərliyi və kollektivi maliyyə naziri Samir Şərifova əmisi

**FİRDOVSİ ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan İnvestisiya Holdinqinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifova əmisi

**FİRDOVSİ RÜSTƏM OĞLU ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və idarənin kollektivi QMİ sədrinin müavini Qəmərxanım Cavadlıya qardaşı

**FƏRRUX AYDIN OĞLU CAVADLININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifova əmisi

**FİRDOVSİ ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5333
Sifariş 2044
Qiyməti 40 qəpik